BU GÜN MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ ÖZÜNÜN ƏN ŞANLI DÖVRÜNÜ YAŞAYIR!

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNNOVASİYALAR: ELM, TƏHSİL, İSTEHSALATIN İNTEQRASİYASI VASİTƏSİ OLAN TEXNOPARKLAR
səhifə-2-də

SMART TƏLƏBƏ KARTLARININ TƏQDİMATI KEÇİRİLİB
səhifə-3-də

UNİVERSİTETİN PAYIZ SEMESTRİNİN İMTAHAN SESSİYASI UĞURLA BAŞA ÇATIB
səhifə-4-də

UNİVERSİTETİN ƏMƏKDAŞLARININ ELMİ MƏQALƏLƏRİ YÜKSƏK İMPAFAKTORLU JURNALLARDA DƏRC OLUNUB
səhifə-5-də

GÖZ YAŞI, QÜRUR, SEVİNC VƏ QƏLƏBƏ OVQATLI İL
səhifə-6-də

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR

HEYDƏR ƏLİYEV

YENİ FİKİR

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

30 yanvar 2021-ci il, №1 (35)

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ 2020-Cİ İLİN YEKUNLARINA VƏ ALTINCI ÇAĞIRIŞ NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN DÖRDÜNCÜ SESSİYASINDA QARŞIYA QOYULAN VƏZİFƏLƏRƏ DAİR MÜŞAVİRƏ

Universitetin rektoru Elbrus İsayev 2020-ci ilin yekunlarına dair müşavirədə qeyd edib ki, Naxçıvanda Ulu Öndər Heydər Əliyevin siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün muxtar respublika sosial, iqtisadi sahədə irəliləyişə, ictimai həyatda müvəffəqiyyətlərə nail olub. Dövlət Proqramında nəzərdə tutulan tədbirlər sırasında təhsil quruculuğunun xüsusi yer tutduğunu qeyd edən rektor bildirib ki, ötən ildə də təhsil siyasəti uğurla davam etdirilib, universitetin bütün kampuslarında yenidənqurma və bərpa işləri aparılıb. Universitetdə 2020-2021-ci tədris ilinin əvvəlində tədris planları üzrə seçmə fənlərə yenidən baxılıb, günümüzdə aktuallıq kəsb edən yeni Robototexnika, Camışçılıq, Mikologiya və mikotoksikologiya, Naxçıvan xalçaçılıq məktəbi, Atıcılıq və s fənləri universitet Elmi Şurasının müzakirəsinə çıxarılıb və təsdiq edilib. "Elektroenergetika mühəndisliyi" ixtisasının tələbələrinin istifadəsi üçün günəş və külək enerjisi qurğusu quraşdırılıb. "Memarlıq və mühəndislik" fakültəsində "Texniki servis mərkəzi", "İnformasiya texnologiyaları" ixtisasının tələbələri üçün "Robototexnika" fənn kabinəsi yaradılıb. Pedaqoji fakültədə Texnologiya və Atıcılıq Mərkəzi yaradılıb. Beynəlxalq münasibətlər və hüquq fakültəsində "Diplomatiya mərkəzi", "Hüquqşünaslıq" ixtisasının tələbələri üçün "Kriminalistika" laboratoriyası və bir neçə əlavə fənn kabinələri, Tibb fakültəsində "Yaşıl əczaxana" yaradılıb. Universitet xəstəxananın fəaliyyəti genişlənib və ötən ilin may ayından etibarən xəstəxanada Cərrahiyyə, Laboratoriya və Göz şöbələri də fəaliyyətə başlayıb.

Elbrus İsayev qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi diqqət və qayğısı sayəsində ali təhsil ocağında müasir maddi-texniki bazaya malik xüsusi binalar tikilir və ya yenidən qurularaq müəllim və tələbələrin ixtiyarına verilir. Xarici dillər fakültəsi üçün də yenidən qurulan və əsaslı sürətdə bərpa edilən binanın yaxın günlərdə istifadəyə hazır olması göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Bildirilib ki, xarici tələbələrin artım dinamikasında əldə edilən yüksək səviyyə ali təhsil ocağının beynəlxalq əlaqələrinin düzgün və sistemli idarəedilməsi nəticəsində mümkün olub. Hazırda universitet xarici tələbələrin müraciəti və qəbul sayına görə ölkə üzrə öncüllüyünü qoruyur. Alman dilinin orta məktəblərdə tədrisi ilə bağlı universitet tərəfindən qaldırılan məsələ də Ali rəhbər tərəfindən rəğbətlə qarşılanıb və öz həllini tapıb. 2020-2021-ci tədris ilində ilk dəfə ingilis dilində "İqtisadiyyat" ixtisasının tədrisinə başlanılıb.

Ali təhsil müəssisəsinin imkanlarını daha da genişləndirməklə yanaşı innovativ layihələrin dəstəklənməsi və Texnologiyalar Parkının yaradılması universitet tarixi üçün ötən ilin ən önəmli yeniliyi sayıla bilər.

Rektor qeyd edib ki, universitetdə 10 fakültə, Magistratura mərkəzi, Xarici tələbələrlə iş üzrə dekanlıq fəaliyyət göstərir. Universitetin bakalavr pilləsində 63 ixtisas üzrə yüksək ixtisaslı mütəxəssislər hazırlanır. Ali təhsil ocağında kadr hazırlığı ilə 453 nəfər professor müəllim heyəti məşğul olur ki, onlardan da 3 nəfəri AMEA-nın müxbir üzvü, 21-i elmlər doktoru, 155-i fəlsəfə doktoru, 13-ü professor, 124-ü dosent, 149-u baş müəllim, 168-i isə müəllimdir. Vurğulanıb ki, 2020-2021-ci tədris ilində ali təhsil ocağına 32 nəfər yeni müəllim işə qəbul edilib.

İlin ən uğurlu qərarlarından biri də 2020-ci ildə universitetin İncəsənət fakültəsi ixtisaslarının Türkiyə Cümhuriyyəti yeni tələbə qəbulu planına daxil edilməsi olub.

Ali təhsil ocağında bakalavr, magistratura, doktorantura pillələri və rezidentura üzrə kadr hazırlığının həyata keçirildiyini diqqətə çəkən rektor vurğulayıb ki, hazırda bakalavriat səviyyəsi üzrə 63 ixtisasda - 5639, magistratura üzrə 76 ixtisaslaşmada - 355, doktoranturada 60 ixtisasda - 138, rezidentura üzrə 24 ixtisasda - 52 nəfər olmaqla ümumilikdə 6184 nəfər təhsil alır. Bakalavr pilləsində - 700, magistraturada 5 nəfər, o cümlədən hazırlıq şöbəsində 312 nəfər əcnəbi tələbə təhsil alır. Əcnəbi tələbələr Türkiyə, İran, Banqladeş, Nigeriya, Pakistan, Özbəkistan, Rusiya, İraq, Cənubi Koreya vətəndaşlarıdır. Ali Məclis Sədrinin xüsusi tapşırığı ilə muxtar respublikada təhsil alan və dünyada yayılmış koronavirus pandemiyasına görə ölkələrinə gedə bilməyən əcnəbi tələbələrə vaxtaşırı olaraq ərzaq payı, maddi yardım təqdim olunub.

Bildirilib ki, 2020-2021-ci tədris ili üçün universitetin qəbul planı 1200 tələbə olaraq təsdiqlənib. Qəbul imtahanlarının nəticəsində 971 əyani, 113 qiyabi şöbəyə qəbul olmaqla ümumilikdə universitetə 1084 tələbə qəbul olub. Bununla da qəbul planı 90,3% yerinə yetirilib. Tələbələrdən 189 nəfəri 500-dən yuxarı balla universitetə qəbul olub ki, onlardan da 12 nəfəri 600-dən çox bal toplayıb. Magistratura təhsil səviyyəsi üzrə keçirilən qəbul imtahanlarında isə universitetə 66 ixtisaslaşma üzrə 207 nəfər magistr qəbul olub.

Elbrus İsayev bildirib ki, tədris ilinin əvvəlində 155 nəfərdən ibarət universitetin elmi dərəcəsi olan əməkdaşlarının muxtar respublikanın ümumtəhsil məktəblərindəki nümunəvi dərslərdə iştirakının qrafiki təsdiq edilib və əməkdaşların bu dərslərdə iştirakı təmin edilib. Universitetdə yerli və xarici mütəxəssislərin iştirakı ilə ustad dərslərin keçirilməsi də il ərzində davam etdirilib.

Bu il kitabxanaya 300 adda, 564 sayda çap materialı daxil olub ki, bunlardan da 436-sı Azərbaycan dilində, 128-i isə xarici dillərdədir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli Sərəncamı ilə təsdiqlənən "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın icrası çərçivəsində həyata keçirilən "Smart" tələbə kartları layihəsinin ilk mərhələsi universitetdə uğurla reallaşdırılıb və I kurs tələbələri smart kartlarla təmin olunub.

Universitetdə Dövlət proqramı və sərəncamlarının icrası ilə bağlı "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında", "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı", "Naxçıvan Muxtar Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı" "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında İdmanın inkişafına dair", "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə", "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı", "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramlarının yerinə yetirilməsi uğurla icra olunub.

Hazırda universitet 42 kafedradan ibarət elmi-təşkilati struktura malikdir. Kafedra əməkdaşları 2016-2020-ci illər üçün Universitet Elmi Şurası tərəfindən təsdiq olunmuş layihəyə əsasən 16 elmi istiqamət üzrə elmi-tədqiqat işləri yerinə yetirirlər. Universitetdə elmi-tədqiqat işlərinin yerinə yetirilməsində Üzvi kimya, Ümumi qeyri-üzvi kimya, Analitik kimya, Kimya texnologiyası, Fiziki və kolloid kimya, Elektrokimya və metallar kimyası, akademik Yusif Məmmədəliyev adına elmi-tədqiqat, Əczaçılıq, Biokimya, İnsan və heyvan fiziologiyası, Fitoterapiya, Mikrobiologiya, Dəmir yollarının avtomatik idarə olunması, Elektronika, Fizika laboratoriyalarının geniş imkanları vardır.

Rektor qeyd edib ki, 2020-ci ildə ali təhsil ocağının iki əməkdaşı - "Nəqliyyat və informasiya texnologiyaları" kafedrasının müdiri Məftun Əliyev AMEA-nın İdaretmə İnstitutunun əməkdaşları ilə birgə "Laydan neftin qeyri-stasionar üsulla çıxarılması" adlı ixtirasına görə Avrasiya Patent Təşkilatının Avrasiya Patent İdarəsi tərəfindən, "Kimya" kafedrasının müəllimi Pərvin Quliyev isə AMEA-nın Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun əməkdaşları ilə birgə "Sb2Se3 nazik yarımkeçirici təbəqələrinin alınması üçün elektrolit" adlı ixtirasına görə Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi tərəfindən patent alıb.

Ötən ildə universitetdə startap layihələrin sayı daha da artıb və bu sahədə uğur qazanılıb. İqtisadiyyat və idarəetmə fakültəsinin "İqtisadiyyat" ixtisası üzrə IV kurs tələbəsi Kamil Hüseynlinin təqdim etdiyi "Vita blok" Startap layihəsi muxtar respublika üzrə qalib olub.

Hesabat dövründə ali təhsil ocağında 2 beynəlxalq, 6 respublika səviyyəli elmi konfrans, tədqiqatçı-mütəxəssislərin elmi potensiallarının artırılması üçün dünyanın müxtəlif ölkələrindən olan nüfuzlu elm adamlarının iştirakı ilə müxtəlif mövzularda vebinar-təlimlər keçirilib.

2020-ci ildə universitet əməkdaşlarının 3 monoqrafiyası, 1 dərsliyi, 15 dərs vəsaiti, 27 metodik vəsaiti və proqramı, 307 elmi məqaləsi və 153 konfrans materialı çap olunub. Elmi məqalələrdən 64-ü, konfrans materiallarından isə 71-i beynəlxalq konfranslarda dərc olunub. 2020-ci ildə xaricdə dərc olunan məqalələrdən 12-si Web of Science məlumat bazasına daxil olan jurnallarda, 7-si Scopus, 10 məqalə isə sahə indeksli elmi jurnallarda dərc olunub.

Məruzə ətrafında çıxışlar dinlənildikdən sonra qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində görüləcək işləri diqqətə çatdıran - rektor vurğulayıb ki, cari ildə də əmək və iş intizamı daha da gücləndirilməli, kadr hazırlığına günün tələbləri səviyyəsində diqqət artırılmalıdır. Texnologiyalar Parkının fəaliyyət sahəsini əhatə edən ixtisaslar üzrə lazimi elmi-tədris proqram və vəsaitləri, təlim texnologiyalarının işlənməsi təmin edilməli, ikili diplom layihələri diqqətdə saxlanılmalı, tədrisi xarici dillərdə olan ixtisaslarda dərslərin keyfiyyəti yeni tələblərə uyğun qurulmalıdır. "Tədqiqat universiteti" statusunu qazanmaq üçün mövcud şərtlər daxilində elmi araşdırmaların tədrisə və istehsalata tətbiqinə nail olunmalıdır - deyən Elbrus İsayev elektron universitet quruculuğu prosesinin davam etdirilməsini və tədris prosesində ən müasir təlim texnologiyalarının uğurlu tətbiqindən danışıb, konkret tapşırıqlar verib, yaradılan şəraitdən səmərəli istifadənin vacibliyini vurğulayıb.

Sonda universitetin elmi-ictimai və mədəni mühitində fəallıq göstərən müəllim və tələbələr mükafatlandırılıb.

Səadət Əliyeva
Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNNOVASİYALAR: ELM, TƏHSİL, İSTEHSALATIN İNTEQRASİYASI VASİTƏSİ OLAN TEXNOPARKLAR

Azərbaycan təhsilinin və elminin qarşısında duran əsas vəzifələrdən biri cəmiyyətin bugünkü inkişaf səviyyəsinə adekvat olan yüksək ixtisaslı kadrların hazırlanmasından ibarətdir. Həmin kadrların müasir təfəkkürlü və kreativ düşüncəli olması, sərişdəyə çevrilə bilən bilik və bacarıqlara malik olması, praktiki vərdişlərlə müşayiət olunan nəzəri biliklər qazanması olduqca vacibdir. Bütün bunları nəzərə alaraq Azərbaycan Respublikasının iqtisadi inkişaf strategiyası xammala əsaslanan iqtisadiyyatdan yüksək texnologiyalara, innovasiyalara əsaslanan iqtisadiyyata keçidi nəzərdə tutur. Enerji resurslarının ixracından əldə edilən vəsaitlər qeyri-neft sektorunun formalaşmasına, insan kapitalının inkişafına yönəlir. Ölkəmizdə reallaşan "qara qızılı insan kapitalına çevirmək" siyasəti dünyanın müasir inkişaf meyillərinə uyğundur, çünki bu gün hər hansı ölkənin zənginliyi onun insanlarının təhsil səviyyəsi ilə ölçülür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: "İnsan kapitalı inkişaf etmiş ölkələrin indiki durumunu müəyyən edən amildir. Həmin ölkələr təbii resurslar hesabına yox, intellektual potensiala, yeni texnologiyaların icad olması, tətbiqinə görə inkişaf edirlər. Biz də bu yolu seçməliyik".

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", "Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında" 2019-cu il 10 yanvar tarixli Sərəncamı məhz bu starteji hədəflər üçün ciddi dövlət sənədi kimi yüksək əhəmiyyətə malikdir.

Dövlətimiz tərəfindən həyata keçirilən innovasiya siyasəti yeni bilik və texnologiyaların istehsalı, yayılması və tətbiq edilməsi üçün lazım olan şəraitin yaradılmasını nəzərdə tutur. Bu siyasət, ölkənin sosial innovasiya potensialının bütün imkanlarının reallaşdırılmasına, eləcə də elm və təhsilin, elmtutumlu cəmiyyətin və mədəniyyətin davamlı inkişafının bərqərar edilməsinə yönəldilmişdir. Davamlı sosial-iqtisadi inkişafın əsasında olan təhsilin və elmi-texniki tərəqqinin rolunu düzgün qiymətləndirərək, regionda elm siyasətinin əsasını qoyan ulu öndər Heydər Əliyevin kursunu uğurla davam etdirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov son illər muxtar respublikada elmin inkişafı, elmi-texniki potensialın modernləşdirilməsi, elm və təhsil sahəsində yüksək ixtisaslı kadrların hazırlanması, onlara daim qayğı göstərilməsi, cəmiyyətdə elm və təhsil işçilərinin nüfuzunun artırılması sahəsində bir sıra mühüm qərarlar qəbul etmişdir. Elm və təhsilin inkişafına dövlət səviyyəsində göstərilən bu qayğı, əslində dövlətçiliyin möhkəmləndirilməsi və xalqın milli-mədəni tərəqqisinə xidmət edən siyasətin tərkib hissəsi kimi qiymətləndirilməlidir. Bu baxımdan hazırda elm və təhsilin əlaqələndirilməsi, bir-biri ilə inteqrasiya olunmuş şəkildə, müasir texnologiya və innovasiyaların tətbiq edilməsi yolu ilə inkişaf etdirilməsi ən prioritet məsələdir. Bu gün Naxçıvanda məhz bu istiqamətləri əhatə edən dövlət siyasəti aparılır - iqtisadi potensialı intellekt kapitalına çevirmək sahəsində mühüm işlər görülür.

Bu sahədə həyata keçirilən məqsədyönlü islahatların nəticəsidir ki, Naxçıvan Dövlət Universiteti özünün maddi-texniki və təşkilati strukturuna görə ən qabaqcıl ali təhsil müəssisəsinə çevrilərək bu gün elm-təhsil-innovasiya sahəsində beynəlxalq təcrübəni tətbiq imkanı qazanmışdır.

"Naxçıvan Dövlət Universitetində Texnologiyalar parkının yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 dekabr 2020-ci il tarixli Sərəncamı bu baxımdan ali təhsil müəssisəsinin imkanlarını daha da genişləndirməklə yanaşı beynəlxalq rəqabətqabiliyyətliliyin təmin olunması, innovativ layihələrin dəstəklənməsi və keyfiyyətli kadr hazırlığına son dərəcə böyük təsir imkanları yaradacaqdır.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında əsas hədəf əsasən, qeyri-neft sektorunun inkişafı hesabına ümumi daxili məhsulun 2 dəfə artırılması və bu artımın respublikada innovasiya yönümlü və biliyə əsaslanan iqtisadiyyatın qurulması hesabına həyata keçirilməsi göstərilmişdir. Belə inkişafın əsas dayaqlarından biri də texnologiyaların işlənilməsinə və tətbiqinə istiqamətlənən müasir innovasiya strukturlarının yaradılmasıdır. İnnovasiya prosesi, zaman etibarı ilə, elmi bilik və ideyaların, kəşf və ixtiraların məhsulu, başqa sözlə, innovasiyaya çevrilməsinin bütün dövrünü əhatə edən prosesdir. Bu istiqamətdəki fəaliyyətin tənzimlənməsi və idarə olunmasında həmin ölkələrdəki texnoparkların üzərinə mühüm vəzifələr düşür. Dünya texnoparklarının 42%-i ABŞ-dadır. Amerika texnoparkları, əsasən, universitet bazaları əsasında yaradılmışdır. Digər texnoparkların 34%-i Avropa ölkələrində, 11%-i Çində və 13%-i isə digər ölkələrin payına düşür.

Texnoparklar beynəlxalq təcrübədə

Texnoparklar tədqiqatlar əsasında fəaliyyət göstərən elmtutumlu istehsalat mərkəzidir. Bu da onu göstərir ki, texnoparkların formalaşması universitetlərin "Tədqiqat Universiteti" statusu alması ilə eyni zamanda baş verən prosesdir. Tədqiqat universiteti ABŞ mərkəzli universitet formasıdır. İlk tədqiqat universiteti isə 1876-cı ildə qurulan John Hopkins Universitetidir. Tədqiqat universitetlərinin quruluşunun başlıca məqsədi isə XX əsrin müasir iqtisadiyyatının formalaşmasına töhvə vermək olmuşdur.

Elmi istehsalata çevirmək istəyən tədqiqat universitetləri mərkəzlər qurmağa başlamışdır. Elm və texnologiyanın inteqrasiyasını hədəfləyən texnoparklar ilk əvvəl ABŞ, İngiltərə, Fransa, Almaniya, Yaponiya kimi elm və texnologiya sahəsində öndə olan ölkələrdə fəaliyyətə başlamışdır. Bü gün dünyada 1000-dən artıq texnopark mövcuddur. İnkubasiya mərkəzləri ilə birlikdə isə bu rəqəm 4 minə yaxındır. Dünyada texnoparkların fəaliyyəti 1951-ci ildə Silikon Vadisi-Stanford araşdırma parkı ilə başlamışdır. "Silikon Vadi" Kaliforniya əyalətində 105 min hektarlıq bir ərazidə fəaliyyətə başlayan, ətraf bələdiyyələrə ildə 1.7 milyard dollar vergi ödəyən 8500 firmada 100 min işçinin çalışdığı gündəlik həyatımıza sirayət edən bir çox yeniliklərin icad edildiyi texnoparkdır. Silikon vadisində ABŞ-ın ən məşhur universitetləri fəaliyyət göstərir və 100 minə yaxın tələbə bu texnoparkda müxtəlif sahələr üzrə çalışır. Silikon vadisi Universitetin tədris mühitinə bir çox imkanlar yaratmaqla yanaşı, magistratura və doktorantura təhsili üçün də ideal məkan sayılır. 2012-2013-cü illərdə ABŞ dövlət tədqiqat universitetlərinin tədqiqatları nəticəsində 13322 patent, 522 yeni şirkət meydana gəlmişdir. Şərqi Texas universitetinin texnoparklarında kənd təsərrüfatı sahəsində tədqiqatlar ABŞ iqtisadiyyatına 1.2 milyard ABŞ dolları miqdarında gəlir gətirmişdir. Bundan başqa İngiltərədə yerləşən 80-ə yaxın texnoparkın ən böyük və məşhur olanları Kembric Elm Parkı, Oxford, Heriot-Vatt və Mersoside elm parklarıdır. Fransada 25 texnopark vardır. Bunların ən məşhuru kompüter, elektronika, tibb, əczaçılıq, kimya, biotexnologiya və təhsil sahələrində xidmət göstərən Sofia Antipolisdir. Avopra Tədqiqat Universitetləri Liqası (LERU) hesabatına görə, 2014-cü ildə universitet tədqiqatlarına verilən hər 1 avroluq investisiya yerli iqtisadiyyata 6 avro qazandırmaqdadır. Yaponiya öz texnoparklarını texnopolis adı altında qurur. Ucuz industriya məhsulları ilə dünya bazarındakı rəqabət gücünü artıran və xaricdən böyük miqdarda xarici investorları cəlb edən Çin əsasən ölkədə 60-dan artıq sayda fəaliyyət göstərən texnoparkların imkanlarından faydalanmaqdadır. İsarilin Ben Gurion Universitetinin nəzdində fəaliyyət göstərən Texnologiyalar parkı tibb üzrə ixtisaslaşaraq ölkə iqtisadiyyatına mühüm təsirləri ilə tanınır. Əlavə olaraq İsarilin 4 texnoparkı dünya texnoparkları ilə ciddi rəqabət imkanlarına malikdir.

Texnoparkların ixtisaslaşması və inkişaf modeli

Beynəlxalq təcrübədə Texnopakların fəaliyyəti üçün vacib olan şərtlərdən biri onun yerləşdiyi ərazidir. Həmin ərazi üçün əsas şərtlər bunlardır: 1) texnoparklar şəhərə yaxın yerdə olmalı; 2) əhalinin yaşayışı üçün əlverişli şəraitli regionda olmalı; 3) elmi parklar elmi-tədqiqat və təhsil müəssisəsinin bazası olan regionda və yüksək ixtisaslı elmi-tədqiqat işi ilə

məşğul olan kadrlardan ibarət olmalı; 4) elmi parklar elmi-tədqiqat işləri aparan və yeni texnologiya işləmələri hazırlamağa qadir olan elmi-tədqiqat və universitetlərə yaxın olan yerdə yerləşməlidir.

Texnoparkların fəaliyyəti üçün əlamətdar olan xüsusiyyətlərdən biri də bu bilik şəhərlərinin ixtisaslaşmasıdır. İnnovasiya parklarının ümumi koordinasiyasını həyata keçirən Beynəlxalq Elmi Parklar Assosiasiyası texnoparkların ixtisaslaşmasını aşağıdakı sahələr üzrə qruplaşdırır:

İKT, informasiya vasitələri, multimedia və telekommunikasiya sahəsində, biotexnologiya, elektronika və mikro elektronika, enerji, ekoloji texnologiya, tibb elmi və texnologiya, sağlamlıq, proqram təminatı, internet texnologiyası, internet biznes, yeni texnologiya, nanotexnologiya, konsaltinq xidməti, kompüter qurğusu, kimya texnologiyası, kənd təsərrüfatı, informatika, avtomatlaşdırma, robototexnika, optika, lazer texnologiya, təhsil, insan resursları, kosmos, astronovatika, avtomobil sənayesi və texnologiyası, elektrik texnologiyası, yer elmləri, mədəniyyət sahəsində xidmətlər, turizm və xidmət texnologiyası, ümumi elmlər, mexanika, logistika, nəqliyyat, audiovizual, təsvir, video, tikinti, fizika, humanitar elmlər, idman texnologiyası.

Naxçıvan Dövlət Universitetində bu gün 454 nəfərlik professor-müəllim heyəti ilə kadr hazırlığı aparılan 63 bakalavriat, 76 magistratura, 60 doktorantura ixtisasları demək olar ki, Beynəlxalq Elmi Parklar Assosiasiyasının müəyyənləşdirdiyi ixtisaslaşma sahələrini əhatə etməkdədir. 2020-2021-ci tədris ilindən etibarən tədrisi nəzərdə tutulan Elektrik və elektronika mühəndisliyi, Kompüter elmləri, Beynəlxalq ticarət və Logistika, Hərbi tibb kimi dövrün tələbindən doğan ixtisasların gələcəkdə Texnoparkın fəaliyyət dairəsinin genişlənməsində xüsusi rolu olacağı danılmazdır. Eyni zamanda tədrisi ingilis dilində İqtisadiyyat ixtisasının hazırda fəaliyyət göstərməsi və gələcəkdə digər müvafiq ixtisaslar üzrə də xarici dildə tədrisin həyata keçirilməsi imkanları innovasiya sahəsində beynəlxalq əməkdaşlıq üçün əhəmiyyətli faktor kimi universitetin strateji hədəflərinə daxildir.

Texnoparklar elm-təhsil-tədqiqatın inteqrasiyası kimi

Müasir dövrün iqtisadi rəqabəti insan kapitalıdır. Beləki iqtisadi inkişaf trendinin dinamik olduğu ölkələrə baxdıqda əsas kapital və gəlir gətirən sahələr elmtutumlu texnologiyalardır. Bu ölkələrdə məhz insan kapitalı inkişafın əsas faktoru kimi çıxış edir və bununla istehsalın 75%-ni və milli gəlirin artımını təmin edir. Dünya Bankının statistikasına baxıldığında yüksək texnologiya ixracat gəliri əldə edən ölkələr Çin, Almanya, ABŞ, Cənubi Korea, Sinqapur, Fransa, Yaponya, Vietnam, Niderland, Malaziya ilk onluqdadırlar.

XXI əsrdə Qərbin inkişaf etmiş ölkələri istehsalın intellektləşdirilməsi ilə bağlı texnoloji inqilabı başa çatdırmışlar. Təsadüfi deyil ki, həmin ölkələrdə məşğulluğun təhsil göstəricisinə baxıldığında ali təhsillilər üstünlük təşkil edir. Misal üçün ABŞ-da işləyənlərin 47.3, Fransada 40.1, Cənubi Koreada 46.8, Yaponiyada 51.7 %-i ali təhsillidir.

Aparıcı ali məktəblər bu gün həm tədqiqat, həm də innovasiya fəaliyyəti ilə aktiv şəkildə məşğul olmağa cəhd edirlər. Onlarda yüksək ixtisaslı alim və pedaqoji kadrlar çalışmalıdırlar, həm ölkənin daxilində, həm də xaricində çalışan digər təşkilatlarla əlaqələr yaradılmalıdır.

Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması həyata keçirilmiş innovasiya siyasətinin məntiqi davamı və uğurlu yekunudur.

Bu gün muxtar respublikamızda təhsilin bütün sahələri özünün yeni inkişaf dövrünü yaşayır. O baxımdan ali təhsilin inkişafı istiqamətində həyata keçirilmiş tədbirlər nəticəsində muxtar respublikamızın ali təhsil müəssisələri nəinki regionun, dünyanın qabaqcıl universitetləri səviyyəsində infrastruktura malikdir.

Ali və orta ixtisas təhsili müəssisələrində təhsilin inkişafı, elmi-tədqiqat işlərinin səviyyəsinin yüksəldilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi və yenidən qurulması, müxtəlif ixtisaslar üzrə mütəxəssislər, pedaqoji və elmi kadr hazırlığı diqqətdə saxlanılmış, yeni təhsil standartlarına keçidlə əlaqədar tədbirlər görülmüşdür.

Naxçıvan Muxtar Respublikasında elm və təhsil arasında əlaqələri daha da gücləndirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı 14 mart 2015-ci il tarixli Sərəncamla Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələri qarşısına müvafiq vəzifələr qoyulmuşdur. Bu vəzifələrin icrası məqsədilə Naxçıvan Dövlət Universitetinin elmi dərəcəsi olan əməkdaşları muxtar respublikanın ümumtəhsil məktəblərində nümunəvi dərsləri uğurla keçirlər. Sərəncamın mühüm əhəmiyyətini nəzərə alaraq professor-müəllim heyəti həmin dərsləri aparmaqla yanaşı şagirdlərdə elmi yaradıcılıq vərdişlərinin formalaşmasına da yaxından dəstək olurlar. Bu məqsədlə Naxçıvan Müəllimlər İnstitutunun təşəbbüsü ilə "Gələcəyin alimləri" layihəsinə start verilmişdir. "Gələcəyin alimləri" layihəsinin təşkilində əsas məqsəd muxtar respublikanın ümumtəhsil məktəblərində təhsil alan istedadlı uşaq və gənclərlə aparılan elmi-metodiki işlərin tənzimlənməsinə köməklik göstərməkdən, şagirdlərdə tədqiqatçılıq qabiliyyətinin formalaşdırılması və onların gələcək peşə istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı tədbirlərin sistemli həyata keçirilməsini təmin etməkdən ibarətdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı ilə muxtar respublikanın təhsil tarixində yeni bir dövrün başlanğıcı qoyulub. Həmin sərəncamla, ümumilikdə, 109 ixtisas 36 təşkilata hamiliyə verilib. Sərəncamda "İdeyadan başlanğıca" devizi altında innovasiyaya və dayanıqlı inkişafa əsaslanan, yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin – startapların həyata keçirilməsi nəzərdə tutulub. Bu mühüm qərar kadr potensialının inkişafı ilə yanaşı, gənclərin istedadlarının üzə çıxarılması, ideyaların reallaşması və startap təşəbbüslərinin dəstəklənməsi sahəsində mühüm addımdır. Sərəncamın icrası istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində hazırlanan "startup.nakhchivan.az" internet portalının təqdimatı olub. "Startap Naxçıvan" hərəkatı muxtar respublikada investisiya mü-

Ardı 3-cü səhifədə

hitini yaxşılaşdırmaqla istedadlı gənclərin üzə çıxarılmasına, onların nailiyyətlərinin yeni sistemin tələblərinə uyğun qiymətləndirilməsinə, yaradıcı düşüncə və inkişafa xidmət edən ən yaxşı layihələrin aşkarlanmasına, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək məqsədi daşıyır. İnnovativ təhsil mühiti müəllimlərə də öz üzərində işləməklə peşəkarlıqlarını artırmağa və sağlam rəqabət mühitinin formalaşmasına şərait yaradır.

Naxçıvan Dövlət Universitetində İnnovativ inkişafla əlaqədar olaraq gənclərin layihələrini, ideyalarını dəstəkləmək üçün "İnnovasiya mərkəzi" və "İnnovasiya laboratoriyası" yaradılmışdır. Bu mərkəz və laboratoriya ali təhsil müəssisəsində tələbələrin Startapla bağlı biliklərinin formalaşması, biznes layihə və planlarının qurulması, bu layihələrin təqdimatı ilə bağlı maarifləndirici treninqlərin keçirilməsini təmin edir ki, bu da gələcək elmimizə gənc kadrların cəlbi baxımından mühüm əhəmiyyətə malikdir. Eyni zamanda Startap hərəkatına qoşulmanı optimallaşdırmaq və operativ əlaqələrin qurulması məqsədilə universitetin internet saytında startap layihələrin qəbulu ilə bağlı "İdeya bankı" fəaliyyət göstərir. "İdeya bankı"na innovativ layihələri olan istənilən şəxs müraciət edə bilir. 2020-ci ildən startup layihələrin sayı daha da artmışdır. Hazırda 20-yə qədər startap layihəsi üzərində işlər aparılır. Layihələrdən biri bu il Naxçıvan Muxtar Respublikası üzrə keçirilən startap müsabiqəsində yüksək qiymətləndirilərək qalib olmuş, İqtisadiyyat Nazirliyi tərəfindən I dərəcəli diplomla təltif edilmişdir.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun yaradılması haqqında" 2019-cu il 7 sentyabr tarixli Sərəncam elmi-tədqiqat proqramlarının və layihələrin maliyyələşdirilməsi, alimlərin elmi fəaliyyətlərinin stimullaşdırılması, muxtar respublikada elmi-texniki potensialın qorunması və inkişaf etdirilməsi sahəsində yüksək əhəmiyyətə malikdir. Hər bir ali təhsil müəssisəsi üçün müəyyənləşdirilmiş 5 fəaliyyət istiqamətindən biri elmin müxtəlif sahələri və istiqamətləri üzrə elmi-tədqiqatların aparılmasıdır. Bu mühüm dövlət sənədi ali təhsil müəssisəsinin fəaliyyətinin əsas məqsədinə - cəmiyyət və əmək bazarının tələbatı nəzərə alınmaqla, yüksək ixtisaslı mütəxəssislərin, elmi və elmi-pedaqoji kadrların hazırlanmasını təmin etməyə birbaşa xidmət edir.

İnanırıq ki, Naxçıvan Dövlət Universitetində yaradılmış Texnologiyalar Parkının imkanları nəticəsində regionumuz və ölkəmiz üçün müxtəlif sahələr üzrə ixtisaslı kadrlar hazırlanaraq ölkə iqtisadiyyatına mühüm töhfələr verməklə elm-təhsil-innovasiya strategiyası uğurla tətbiq olunacaqdır.

Elbrus İSAYEV
Naxçıvan Dövlət Universitetinin rektoru

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ İLƏ TÜRKİYƏNİN QARS QAFQAZ UNİVERSİTETİ ARASINDA ONLAYN MÜQAVİLƏ İMZALANIB

Naxçıvan Dövlət Universiteti ilə Qars Qafqaz Universiteti arasında onlayn görüş keçirilib. Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev hər kəsi salamlayıb, ölkələrimiz arasında qardaşlıq münasibətlərinə toxunub, iki qardaş ölkə arasında bütün sahələrdə əlaqələrin yüksək səviyyədə olduğunu diqqətə çatdırıb. Rektor tarixi ədalətin bərpa olunmasında Türkiyənin Azərbaycana verdiyi mənəvi, siyasi dəstəyi xüsusi olaraq qeyd edib. Universitetlərarası əlaqələrə toxunan Elbrus İsayev Türkiyə universitetləri ilə Naxçıvan Dövlət Universiteti arasında qarşılıqlı və faydalı əməkdaşlığın genişləndirilməsi istiqamətində yeni layihələrin həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Qars Qafqaz Universitetinin rektoru Hüsnü Kapı düşmən üzərində qazandığımız qələbəni bütün türk dünyasının birliyi, zəfəri adlandırıb və bu münasibətlə hər kəsi təbrik edib. Qeyd edilib ki, Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" sözləri və Azərbaycanın Ulu öndəri Heydər Əliyevin "Biz bir millət, iki dövlətik fikirləri bizim dostluğumuzun və qardaşlığımızın mənasını təşkil edir. Daha sonra layihə təklifləri müzakirə olunub.

Görüşdə bütün elm-təhsil sahələrində ortaq layihələr həyata keçirmək, konfranslar, simpoziumlar təşkil etmək, ortaq elmi araşdırmalar və nəşrlər aparmaq, elmi toplantılar təşkil etmək, tələbə-müəllim mübadiləsi həyata keçirmək, müxtəlif idman növləri üzrə universitetlərarası idman yarışları keçirmək məsələləri müzakirə edilib. Elmi rəqabətliliyin təmin edilməsi, tələbə, müəllim mübadiləsi, mədəniyyət, idman və.s sahələrdə birgə fəaliyyət, tələbə təqaüdü proqramları, elmi əməkdaşlıqda magistr və doktorantura proqramları, elmi tədqiqat sahələrində birgə araşdırmalar, tədqiqatlar aparmaq əsas fəaliyyət istiqamətləri kimi müəyyənləşdirilib.

Sonda hər iki universitet arasında onlayn şəkildə qarşılıqlı müqavilə imzalanıb.

UNİVERSİTETİN TƏLƏBƏSİ-QAZİ ELDAR XƏLİLOVLA GÖRÜŞ

Naxçıvan Dövlət Universitetində əlavə ali təhsil üzrə "Hüquq ixtisası"nın III kurs tələbəsi, II Qarabağ müharibəsinin iştirakçısı olmuş qazi Eldar Xəlilovla görüş keçirilib. İlk öncə şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilib. Tədbirdə giriş sözüylə çıxış edən universitetin rektoru Elbrus İsayev qeyd edib ki, Vətən müharibəsindəki qalibiyyətimiz Ali Baş Komandanımızın qətiyyəti və yüksək siyasi səriştəsi, Azərbaycan Ordusunun, Şəhidlərimizin, qazilərimizin və bir yumruq kimi birləşən xalqımızın sayəsində oldu. Allahdan şəhidlərimizə rəhmət, yaralı əsgərlərimizə şəfa diləyən rektor bu şanlı qələbə münasibətilə hər kəsi təbrik edib. Diqqətə çatdırılıb ki, vətən müharibəsi iştirakçısı olmuş hər bir qəhrəmanımızın döyüş yolu gənc nəslə nümunə olmalı və onların qəhrəmanlıqları hər bir gəncin həyat amalına çevrilməlidir. Sonra Qarabağ qazisi Eldar Xəlilova vətən müharibəsində fəal iştirakına görə Naxçıvan Dövlət Universiteti adından fəxri fərman təqdim edilib.

Naxçıvan Dövlət Universiteti "Hüquq" fənləri kafedrasının müəllimi Əziz Qasımov universitetin Vətən müharibəsində iştirak edən və qəhrəmancasına həlak olan şəhidlərinin və müharibədə iştirak edib vətənə dönən qazilərin adlarını çəkib. Bildirilib ki, qələbənin qazanılmasında misilsiz rəşadət göstərən hər bir əsgərimizə borcluyuq.

Qazi öz çıxışında qeyd edib ki, şəhidlərin qanı bahasına qazandığımız qələbəmizdən hələ illər sonra da danışılacaq və gələcək nəslə örnək göstəriləcək. "Mən fəxr edirəm ki, qalib ordunun əsgəriyəm"-deyən qazimiz vurğulayıb ki, əmisi də I Qarabağ müharibəsinin iştirakçısı olub və qazidir.

Sonda tələbələrin fikirləri səsləndirilib, qaziyə ünvanladıqları suallar cavablandırılıb.

SMART TƏLƏBƏ KARTLARININ TƏQDİMATI KEÇİRİLİB

Naxçıvan Dövlət Universitetində Smart tələbə kartlarının təqdimat mərasimi keçirilib. Tədbiri giriş sözüylə açan universitetin rektoru Elbrus İsayev təqdim edilən smart tələbə kartlarının elektron universitet sistemini daha da gücləndirəcəyinə inandığını qeyd edib. Vurğulanıb ki, Azərbaycan Respublikası Prezidentinin 26 sentyabr 2018-ci il tarixli Sərəncamı ilə təsdiqlənən "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın icrası çərçivəsində həyata keçirilən Smart Tələbə kartları layihəsinin ilk mərhələsi Naxçıvan Dövlət Universitetində uğurla reallaşdırılıb. Vurğulanıb ki, bu layihə müasir ödəniş mədəniyyətinə malik yeni nəslin yetişməsində, ölkədə rəqəmsal ödəniş ekosisteminin inkişafına mühüm dəstək olacaq. Diqqətə çatdırılıb ki, ali təhsil müəssisələri tələbələrinin bu layihəyə cəlb edilməsi bütövlükdə təhsillə bank sistemi arasında sıx əməkdaşlığa yeni imkanlar yaradacaq.

"Naxçıvanbank" ASC İdarə Heyətinin sədri Azər Məmmədov bildirib ki, muxtar respublikada "nağdsız cəmiyyət"in formalaşdırılması, nağdsız ödənişlərin həcminin artırılması muxtar respublika rəhbəri tərəfindən diqqətdə saxlanılan əsas məsələlərdəndir. Məhz bunun nəticəsidir ki, muxtar respublikamızda nağdsız ödənişlərin iqtisadiyyatdakı çəkisini artırmaq üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən 2013-2015-ci illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması üzrə Tədbirlər Planı", 2016-2018-ci illərdə "Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram" təsdiq olunub və uğurla icra olunmaqdadır. Qeyd edilib ki, proqramın strateji məqsədi vətəndaş, biznes subyektləri və dövlət strukturları arasında nağdsız ödəniş mühitinin xeyli genişlənməsi, nağd dövriyyənin həcminin minimuma endirilməsi və nəticədə

bank sektorunun maliyyə resursları bazasının gücləndirilməsidir.

Naxçıvan Dövlət Universiteti "Mühasibat uçotu" şöbəsinin müdiri Ülvi Baxışlı qeyd edib ki, Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Mərkəzi Bankın və universitetin təşəbbüsü, "NAXÇIVANBANK" ASC və "Mastercard"ın dəstəyi ilə 2020-ci ildən universitetimizdə həyata keçirilməsinə star verilən Smart tələbə kartları unikal bir kartdır. Tələbə kartları bir çox mühüm xüsusiyyətləri və üstünlükləri ilə fərqlənir. Bu kartlar, eyni zamanda tələbələr üçün yeni vahid Beynəlxalq İSİC (International Student Identity Card) standartları ilə hazırlanmış tələbə biletidir.

Kartın mühüm xususiyyətlərindən biri də debet bank kartı olmasıdır. Artıq tələbələrə istər dövlət, istərsə də tədris müəssisəsi tərəfindən ödənilən təqaüdlər həmin kartlar vasitəsilə veriləcək və tələbələr ölkə daxilində və xaricdə bu kartlarla istənilən ödənişlərini həyata keçirə biləcəklər. Eyni zamanda regionda yaşayan valideynlər övladlarına rahatlıqla maliyyə vəsaiti göndərə biləcəklər. Tələbələr smart kartdan universitet, kitabxana və oxu zallarına giriş üçün də istifadə edə biləcəklər. Gələcəkdə smart tələbə kartının əhatə imkanlarının daha da genişləndirilməsi, ictimai nəqliyyatda, tələbələr üçün xüsusi endirim kampaniyalarında və digər xidmət sahələrində istifadəsi də nəzərdə tutulub. Eyni zamanda bu kartlardan istifadənin genişləndirilməsi ölkədə nağdsız ödənişlərin təşviqində, müasir ödəniş mədəniyyətinin formalaşdırılmasında, maliyyə savadlılığının yüksəldilməsində mühüm addım olacaq.

"Mühasibat uçotu və audit" ixtisası üzrə I kurs tələbəsi Gülşən Abbasova tələbələr adından yaradılan şərait üçün öz minnətdarlığını ifadə edib.

Sonda bir qrup tələbəyə smart kartlar təqdim olunub.

TÜRKİYƏLİ PROFESSOR "KRİSTALLOQRAFİK NAXIŞLAR" ADLI VEBİNAR KEÇİB

Naxçıvan Dövlət Universitetində vebinar keçirilib. "Kristalloqrafik naxışlar" adlı vebinarı Türkiyə Qars Qafqaz Universiteti Xarici Əlaqələr bölməsinin müdiri, Qeyri-üzvi kimya kafedrasının müəllimi Hacalı Necefoğlu keçib.

Tədbiri giriş sözüylə açan universitetin elmi katibi, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Məftun İsmayılov qeyd edib ki, kristalloqrafiya elminin Azərbaycanda zəngin və uğurlu inkişaf tarixi vardır. Ölkəmizin ilk kristalloqraf alimi A.Z.Vəzirzadə 1922-ci ildə Sarbonna Universitetini bitirəndən sonra Bakıda kristallomorfologiya sahəsində ilk elmi məktəb yaradıb.

Türkiyəli professor bildirib ki, son illərdə kristalloqrafiya və kristallokimya elminin əhəmiyyəti daha da yüksəlib. Hazırda müasir elm və texnologiyanın elə bir sahəsi yoxdur ki, orada kristallik maddələrdən istifadə olunmasın. Kristallar nanotexnologiya, ifratkeçirici, yarımkeçirici, lazer, dərman maddələri və s. kimi xüsusi əhəmiyyət kəsb edən sahələrdə istifadə olunur. Vurğulanıb ki, müasir tələbatlara cavab verən cihazların hazırlanmasını kristallarsız təsəvvür etmək olmaz. Müasir kristalloqrafiya və kristallokimya ilk növbədə simmetriya haqqında təlimlə başlayır. Bu təlim təbiətşünaslıq elmləri – geologiya, kimya, fizika, biologiya, riyaziyyat sahəsində forma, quruluş, sistemlər arasında oxşar və fərqli cəhətləri aşkarlamaq üçün ümumi qanunauyğunluqların müəyyənləşdirilməsində geniş istifadə olunur. Diqqətə çatdırılıb ki, kristallik maddələr material hissəciklərin ixtiyari nizamsız halından – buxar, məhlul, qaz, ərinti və amorf halından və ya digər kristallik fəzalardan yenidən kristallaşmaqla əmələ gəlir. Kristallik hala keçid kristallaşmanın müəyyən dəqiq temperaturunda baş verir.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

Səadət Əliyeva
Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri

NAXÇIVAN MUXTAR RESPUBLİKASI BASKETBOL FEDERASİYASININ HESABAT YIĞINCAĞI KEÇİRİLİB

Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının 2020-ci ilin yekunu və 2021-ci ildə görüləcək işlərə dair hesabat yığıncağı keçirilib. Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının sədri Elbrus İsayev qeyd edib ki, ölkəmizdə digər sahələrin uğurlu inkişafı ilə yanaşı, basketbol idman növünə də xüsusi önəm verilir. Universitetin idman sahəsindəki uğurlarından bəhs edən rektor qazanılan nailiyyətlərin ölkədə və muxtar respublikada idmanın inkişafına, gənclərin mənəvi fiziki cəhətdən sağlam yetişməsinə göstərilən diqqət və qayğının nəticəsi kimi qiymətləndirib. Vurğulanıb ki, 2002-ci ildə yaradılan Basketbol Federasiyası idmanın bu növünün inkişaf etdirilməsini, yeniyetmə və gənclərin idmana cəlb olunmasını, idman yarışlarının kütləviliyinin artırılmasını daim diqqətdə saxlamalıdır. Federasiyanın sədri Elbrus İsayev bildirib ki, gələcəkdə də Basketbol federasiyası Gənclər və İdman Nazirliyi ilə birgə işini günün tələbləri səviyyəsində qurmalı, eyni zamanda komandaların tərkibinin gücləndirilməsi istiqamətində ardıcıl işlər görməli və bu idman növünün kütləvi hal alması üçün bütün zəruri tədbirlər həyata keçirilməlidir. Cari il üçün federasiyanın "Tədbirlər Planı"nı iştirakçıların diqqətinə çatdıran rektor qeyd edib ki, ötən 6 ay ərzində basketbol idman növünün təbliği və bu sahədə peşəkar kadrların hazırlanması məqsədilə universitetin basketbol fənni üzrə fənn proqramı hazırlanaraq "Məşqçilik" ixtisasında seçmə fənn kimi tədrisinə başlanılıb.

Bədən tərbiyəsi və idman kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Məmmədəli Rəhimov qeyd edib ki, universitetdə tələbələrin fiziki tərbiyə ilə məşğul olması könüllülük prinsipinə əsaslanıb. Bunun üçün universitetdə yaradılan idman klubunda 15 idman növü üzrə təcrübəli məşqçilərin rəhbərliyi altında dərsdənkənar məşğələlər təşkil edilir. Bu məşğələlərdə həm idmanın kütləviliyinin artırılmasına həm də yüksək dərəcəli idmançıların hazırlanmasına ciddi fikir verilir. Muxtar respublikanın Ordubad, Culfa, Babək, Şahbuz, Şərur, Sədərək, Kəngərli rayonlarında və Naxçıvan şəhərində üç qrupdan ibarət 10 oğlan komandası və Ordubad şəhərində, Culfa rayonunun Yaycı kəndində 2 qız komandası olmaqla ümumilikdə 12 komanda fəaliyyət göstərir. Hazırda fəaliyyət göstərən qız və oğlan qruplarında 200-dən artıq idmançı idmanın bu növü ilə məşğul olur.

Naxçıvan Muxtar Respublikası Əməkdar Bədən tərbiyəsi və idman xadimi, Bədən tərbiyəsi və idman kafedrasının müdiri Əvəz Tağıyev Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının 2021-ci il 22 yanvar tarixdə keçirilən iclasda qəbul edilən qərar layihəsini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Universitetin Pedaqoji fakültəsinin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vəli Əliyev mülahizə və təkliflərini səsləndirib.

"XARIBÜLBÜL" KUBOKU UĞRUNDA İNTELLEKTUAL BİLİK YARIŞMASI KEÇİRİLİB

Naxçıvan Dövlət Universitetində universitetin Tələbə Gənclər Təşkilatının rəhbərliyi ilə ali təhsil ocağının I kurs tələbələri arasında "Xarıbülbül" kuboku uğrunda intellektual yarış keçirilib. "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, vətən torpağına, millətə sədaqət, vətən uğrunda şəhidliyə hazır olmaq hislərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir."Ulu öndərin müdrik kəlamıyla tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev qeyd edib ki, ölkəmizdə gənc nəslin vətənpərvərlik ruhunda yetişdirilməsi aktual məsələ kimi böyük əhəmiyyət kəsb edir. Rektor Azərbaycan Respublikası Prezidenti, Azərbaycan Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin siyasi səriştəsi və şəhidlərimizin qanı bahasına qazandığımız tarixi qələbəmiz münasibətilə gənc nəsli təbrik edib. Vurğulanıb ki, tələbələr vətənini, xalqını sevməyi özlərinin həyat amalı seçməli və gələcək nəslə nümunə olmağı bacarmalıdır. Keçirilən bilik yarışmalarının əhəmiyyətini diqqətə çəkən rektor hər bir gənci tariximizi unutmamağa və yaşatmağa çağırıb. Rektor tələbələrə bilik yarışmasında uğurlar arzulayıb.

Naxçıvan Dövlət Universiteti Tələbə Gənclər Təşkilatının sədri Əziz Qasımov layihənin əhəmiyyəti, məqsədi, vəzifələri və oyunun qaydaları haqqında tədbir iştirakçılarını məlumatlandırıb. Sonra bilik yarışına start verilib.

Qeyd edək ki, oyunda 22 komanda iştirak edib. Yarışma hər turda 12 sual olmaqla üç turdan ibarət olub. Suallar Qarabağın tarixi, mədəniyyəti, coğrafiyası və. s mövzuları əhatə edib. İntellektual oyunda İncəsənət fakültəsinin "Cəbrayıl" komandası qalib olub. Beynəlxalq münasibətlər və hüquq fakültəsinin "Bayraktar" komandası II, həmin fakültənin "Qarabağa qayıdış" komandası isə III yeri qazanıb.

Qalib gələn komandalar kubok və medallarla mükafatlandırılıb.

Günay Hüseynova
Jurnalistika ixtisası üzrə I kurs tələbəsi

UNİVERSİTETİN PAYIZ SEMESTRİNİN İMTAHAN SESSİYASI UĞURLA BAŞA ÇATIB

2020-2021-ci il payız semestrində imtahanlar gün ərzində 100 qrup olmaqla 1600 tələbənin iştirakı ilə keçirilib. Tələbələr elektron qaydada təşkil edilən imtahanlardan savayı ənənəvi-yazılı və şifahi qaydada da imtahan veriblər. Qeyd edək ki, hər gün keçirilən yazılı imtahanlar üçün də xüsusi nəzarət sistemi tətbiq olunan otaq müəyyənləşdirilib. Bundan başqa xüsusi qabiliyyət tələb edən ixtisaslarda imtahanların şifahi qaydada keçirilməsi nəzərdə tutulub. Şifahi imtahanlar müvafiq kafedralar tərəfindən razılaşdırılmış qaydada fakültə daxilində keçirilib. Universitetin rektoru Elbrus İsayev keçirilən imtahanların gedişi prosesi ilə tanış olub, tələbələrə uğurlar arzulayıb. İmtahanların gedişi ilə bağlı tələbələrin arzu və təkliflərini öyrənib.

Semestr ərzində 1489 sayda nəzərdə tutulan imtahanların 604-ü yazılı, 630-u elektron, 255-i isə şifahi qaydada keçirilib.

Elektron imtahanlar bu semestr 13 elektron və 25 yazılı olmaqla kamera ilə təchiz edilmiş otaqlarda aparılıb.

İmtahanlara ümumi nəzarət etmək üçün isə 9 nəfərdən ibarət imtahan qərargahı yaradılıb. İmtahanların gedişində ciddi texniki problemlərə, xoşagəlməz hallara rast gəlinərsə, tələbənin şikayətinə baxılması və obyektiv həlli məqsədilə apellyasiya komissiyası da yaradılıb. Gələcəkdə tədris edilən fənlərin keyfiyyətini daha da yüksəltmək üçün imtahan suallarının artırılması və təkmilləşdirilməsi nəzərdə tutulub.

Qeyd edək ki, bu günədək elektron test üsulu ilə keçirilən imtahanlar obyektivlik və şəffaflığın gözlənilməsi, tələbələrin öz biliklərini operativ şəkildə ortaya qoyması, obyektiv qiymətləndirmə baxımından böyük üstünlükləri ilə özünü doğruldub. İmtahan zallarında quraşdırılan veb kameralar şəffaflığın ən bariz nümunəsi hesab oluna bilər. Tələbələr müəyyən olunmuş vaxt ərzində kompüterin köməyi ilə 50 sualı cavablandırır, nəzarətçilər tələbənin imtahanı başlamasını və bitirdiyini təsdiqlədikdən sonra, tələbə imtahan nəticələri ilə bağlı dərhal məlumatı əldə edə bilir. Hər test sualı üçün 1 bal, yazılı imtahan üçün 10 ballıq qiymətləndirilmə tətbiq edilir.

Məlumat üçün onu da bildirək ki, tələbələr universitetin elektron səhifəsində yerləşdirilən linkdən itifadə etməklə imtahan nəticələrini öyrənməklə bərabər universitetin saytında e-cədvəl bölməsinə daxil olmaqla dərs, kollokvium, imtahan cədvəlləri, sualları və imtahan nəticələri barədə məlumat toplaya bilirlər. Eyni zamanda səhifədə yaradılan "Rrektora müraciət" bölməsinə daxil olan hər bir tələbənin imtahanlarla bağlı sual, təklif və şikayətlərini birbaşa rektora ünvanlaması yaradılan obyektiv şəraitin ideal nümunəsi sayıla bilər.

İmtahanlarda bir yenilik də ondan ibarətdir ki, Memarlıq və mühəndislik fakültəsində elektron jurnalın tətbiqi sayəsində tələbənin müvəffəqiyyət və keyfiyyət faizləri avtomatik olaraq sistemə inteqrasiya olunur və bu da imtahan nəticələrinin hesablanmasını sürətləndirir.

PROFESSOR NAZİM ƏHMƏDOVUN MONOQRAFİYALARININ TƏQDİMATI KEÇİRİLİB

Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanasında "Mühasibat uçotu və maliyyə" kafedrasının professoru, iqtisad elmləri doktoru Nazim Əhmədovun "Sürətlə inkişaf edən və modernləşən Naxçıvan iqtisadiyyatı" və "Azərbaycanda turizmin inkişafı və onun regional problemləri" adlı monoqrafiyalarının təqdimat mərasimi keçirilib.

Təqdimatı giriş sözü ilə universitetin elmi katibi, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Məftun İsmayılov açaraq hər iki monoqrafiyanı yüksək qiymətləndirib. Bildirilib ki, hər iki elmi əsər ali məktəb tələbələri, müəllimlər və bu sahələrlə maraqlanan hər kəs üçün qiymətli mənbə ola bilər. Müəllifi monoqrafiyalarının təqdimatı münasibətilə təbrik edən Məftun İsmayılov professora elmi fəaliyyətində uğurlar arzulayıb.

"Mühasibat uçotu və maliyyə" kafedrasının müdiri, iqtisad elmləri doktoru Teymur Abbasov "Sürətlə inkişaf edən və modernləşən Naxçıvan iqtisadiyyatı" monoqrafiyası haqda çıxış edib. Qeyd edilib ki, monoqrafiyada ilk növbədə 5000 ildən çox yaşı olan qədim Naxçıvanın iqtisadiyyatının XX əsrin axırlarına qədərki dövrünə nəzər salınıb. Ölkəmiz ikinci dəfə öz müstəqilliyini bərpa etdikdən sonra, xüsusilə 1995-ci ilin sonunda makroiqtisadi sabitliyin yaranması və Naxçıvan Muxtar Respublikasının sürətli inkişafı geniş tədqiqat obyektinə çevrilib. Əsərdə muxtar respublika iqtisadiyyatında baş verən köklü dəyişikliklər, əldə olunan uğurlar, bu sahədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iqtisadi siyasəti zəngin statistik materiallar əsasında təhlil edilib.



"Bələdiyyə və turizm" kafedrasının müdiri, baş müəllim Flora Kərimova öz çıxışında bildirib ki, Nazim Əhmədovun "Azərbaycanda turizmin inkişafı və onun regional problemləri" elmi əsərində dünyada turizmin meydana gəlməsi, inkişafı, turizm sahəsinə ümumi yanaşmalar və turizm sahəsində beynəlxalq təcrübəyə nəzər salınıb. Azərbaycanda turizmin yaranması, inkişaf tarixi, zəruriliyi, məqsədi və əsas istiqamətləri tədqiq olunub. Həmçinin, monoqrafiyada muxtar respublikada turizmin inkişafının müasir vəziyyəti, turizmin inkişaf perspektivləri, bu sahədə həyata keçirilən tədbirlər, turizmdə sahibkarlığın formalaşması və dövlət tənzimlənməsindən söhbət açılıb.

Sonda müəllif muxtar respublikada ziyalı mühitin formalaşması istiqamətində görülən işlərdən danışıb və yaradıcı insanlara göstərilən dövlət dəstəyinə görə öz minnətdarlığını ifadə edib.

Səadət Əliyeva
Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri

UNİVERSİTETİN MÜƏLLİMİ İXTİRASINA GÖRƏ PATENT ALIB

Naxçıvan Dövlət Universiteti Kimya kafedrasının müəllimi Pərvin Quliyev "Sb2Se3 nazik yarımkeçirici təbəqələrinin alınması üçün elektrolit" adlı ixtirasına görə patent alıb.

Azərbaycan Respublikası
Əqli Mülkiyyət Agentliyi
Patent
İXTİRA
İ 2020 0063
Sb_2Se_3 NAZİK YARIMKEÇİRİCİ TƏBƏQƏLƏRİNİN ALINMASI ÜÇÜN ELEKTROLİT
Patentin sahibi: Azərbaycan Milli Elmlər Akademiyasının akademik M. Nağıyev adına Kataliz və Qeyri-Üzvi Kimya İnstitutu (AZ)
Müəlliflər: Məcidzadə Vüsalə Asim qızı (AZ), Əliyev Akif Şıxan oğlu (AZ), Quliyev Pərvin Heydər oğlu (AZ), Tağıyev Dilqəm Bəbir oğlu (AZ)
İdarə Heyətinin sədri Kamran İmanov

Qeyd edək ki, patentin məqsədi "Elektrokimyəvi yolla Sb-Se nazik təbəqələrinin sintezi və bəzi xassələrinin tədqiqi" mövzusunda aparılan tədqiqatlar zamanı Sb2Se3 stexiometrik tərkibə malik yarımkeçirici təbəqələrin alınması, alınan bu təbəqələrin potensial adsorbent olması və s. kimi çoxsaylı yüksək elmi nəticələr əldə olunmasıdır. Qeyd edək ki, aparılan elektrokimyəvi reduksiya prosesləri tartrat turşusu (çaxır turşusu) elektrolitində aparılıb. Əldə olunan elmi nəticələrin dünya tədqiqatçılarının tədqiqat nəticələrindən fərqliliyi araşdırmaların tartrat elektrolitində aparılması olub. Tartrat elektroliti məhlulunda aparılan reduksiyadan alınan təbəqələrin bir sıra əhəmiyyətli fiziki-kimyəvi parametrlərə malik olması kimi elmi nəticələrin müəlliflik şəhadətnaməsi ilə təsdiq edilməsi qarşıya məqsəd qoyulub. Bunun üçün AMEA Kataliz və Qeyri-üzvi Kimya İnstitutu ilə sifarişçi kimi razılaşdırılmış və ixtiraya dair sənəd-müəlliflik şəhadətnaməsi sifariş verilib. 2017-ci il 11 aprel tarixində verilən sifariş 2020-ci il 14 oktyabr tarixində Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi tərəfindən dövlət reyestrində qeydiyyata alınıb.

Səadət Əliyeva
Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ƏMƏKDAŞLARININ ELMİ MƏQALƏLƏRİ YÜKSƏK İMPAFAKTORLU JURNALLARDA DƏRC OLUNUB

Naxçıvan Dövlət Universiteti İnformatika kafedrasının professoru, Riyaziyyat üzrə elmlər doktoru Yaqub Məmmədov, AMEA Riyaziyyat və Mexanika İnstitutunun "Riyazi analiz" şöbəsinin müdiri, AMEA-nın müxbir üzvü, Fizika-riyaziyyat elmləri doktoru, professor Vaqif Quliyev və Naxçıvan Dövlət Universiteti "İnformatika" kafedrasının müəllimi Fatma Müslümova ilə birgə ərsəyə gətirdiyi "Dankl operatoru ilə bağlı Orlic fəzasında maksimal komutatorun məhdudluq xüsusiyyətləri" adlı elmi məqaləsi yüksək impafaktorlu "Riyazi tədqiqat jurnalı"nda (Journal of Mathematical Study) dərc olunub. Məqalədə Dankl operatoru ilə bağlı Orlic fəzasında maksimal operatorun və onun komutatorunun məhdudluğu üçün zəruri və kafi şərtlər tapılır.



Jurnalın veb saytı: https://global-sci.org/intro/article_detail/ jms/ 15207.html

Naxçıvan Dövlət Universiteti Təsviri incəsənət kafedrasının baş müəllimi Ləman Məmmədovanın "Azərbaycan miniatürlərinin universal dili" adlı elmi məqaləsi impafaktorlu "Beynəlxalq humanitar və təbii elmlər jurnalı"nda (İnternational Journal of Humanities and Natural Sciences) nəşr olunub. Məqalədə Azərbaycan miniatürlərində zəngin fəlsəfi dünyagörüşü, bədii-estetik təfəkkürü, düşüncəsi, rəsmetmədə özünəməxsus üslub və ifadə tərzlərinin peşəkarlıq səviyyəsi, tipologiyası, metod və üsulları haqda ətraflı məlumat verilib. Məqalədə, həmçinin qeyd edilib ki, klassik miniatür sənətinin üslub xüsusiyyətlərindən istifadə edilməsi Azərbaycan təsviri sənətinin sonrakı inkişaf dövrlərində daha da genişlənib, boyakarlıq, qrafika, xüsusən kitab illüstrasiyası sahələrində bir sıra rəssamların yaradıcılıq axtarışları uğurlu əsərlərlə nəticələnib.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Naxçıvan Dövlət Universiteti Təbiətşünaslıq və Kənd Təsərrüfatı fakültəsinin Kimya kafedrasının dosenti, Kimya elmləri doktoru Əliəddin Abbasov , universitetin Kimya kafedrasının laboratoriya müdiri Aygün Qocayeva və AMEA Naxçıvan bölməsi, Təbii Ehtiyatlar İnstitunun laboratoriya müdiri Fizzə Məmmədovanın birgə qələmə aldığı "Zəif və qüvvətli turşu ionidləri ilə metal ionlarının sorbsiyası" adlı elmi məqalələri Böyük Britaniyanın Mançester şəhərində yüksək impafaktorlu "Elm və təcrübə: müasir cəmiyyətə tətbiq" (Science and practise implementation to modern society) adlı elmi jurnalda dərc olunub. Məqalədə zəif və qüvvətli turşu özəllikli Diaion RCP160M, Dowex 50 Wx8, Diaion WK40 ionidləri ilə Cu2+, Zn2+, Kd2+ və Pb2+ ionlarının sorbsiyasının tarazlıq şərtləri, kinetikası və bu məlumatlar əsasında prosesləri xarakterizə edən termodinamik kəmiyyətlər hesablanıb. Bundan başqa bu ionidlərin iştirakı ilə adı çəkilən ionların olduğu birgə məhlullardan onların bir-birlərindən ayrılması imkanları öyrənilib. Qeyd edilənlərlə yanaşı prosesləri xarakterizə edən izotermlərin hesablama tənlikləri təklif edilib və Freyndlix tənliyinə daxil olan sabitlər hesablanıb.



Naxçıvan Dövlət Universiteti "Ümumi riyaziyyat" kafedrasının müəllimi Aynurə Seyidovanın "V-VI siniflərin Riyaziyyat kursunun təlimi prosesində fənlərarası əlaqələrin (inteqrasiyanın) reallaşdırılması yolları" adlı elmi məqaləsi Ukraynanın impafaktorlu "Elm və təcrübə jurnalı"nda ("Науково-практичний журнал") dərc olunub.

Məqalədə V-VI siniflərdə təhsilin səviyyəsini qaldırmaq üçün fənlərarası və fəndaxili inteqrasiyanın əhəmiyyətindən bəhs edilib. Riyazi biliklərin həyatla əlaqələndirilməsinin zəruriliyi qeyd edilən məqalədə konkret mövzular üzrə inteqrasiya nümunələri də göstərilib.

Jurnalın veb saytı: https://scienceandeducation.pdpu.edu.ua/arkhiv/vipuski-2020/vipusk-4-2020

Naxçıvan Dövlət Universiteti Biologiya kafedrasının müdiri, Biologiya elmləri doktoru, professor Daşqın Qənbərovun dissertantı, universitetin Elmi Tədqiqatların Əlaqələndirilməsi Bölməsinin Baş Elmi İşçisi Aysel Heydərova ilə birgə yazdığı "Naxçıvan Muxtar Respublikası ərazisinin Darıdağ florasının taksanomik spektri" adlı elmi məqaləsi yüksək impafaktorlu "Beynəlxalq Botanika Araşdırmaları Jurnalı" (International Journal of Botany Studies) adlı jurnalda nəşr olunub.

Məqalədə Darıdağ massivinə daxil olan fəsilələrin müəyyən edilməsi, fəsilələrə aid olan cins və növlərin müqayisəli təhlili, taksonomik spektrinin tərtib olunması haqqında məlumat verilir. Qeyd edilir ki, ərazinin bitki örtüyünü əsasən kserofit bitkilər təşkil edir. Darıdağ ərazisinin florası 46 fəsiləyə, 167 cinsə daxil olan 277 növ bitkidən ibarətdir. Bu da Qafqaz florasının 3,69%-ni, Azərbaycan florasının 5,54%-ni, Naxçıvan Muxtar Respublikası florasının isə 9,14%-ni təşkil edir. Məqalədə o da bildirilir ki, ərazi florasında cins sayına görə birinci yeri Kələmkimilər fəsiləsi (Brassicaceae Burnett) – 26 cins, növ sayına görə isə birinci yeri Asterkimilər fəsiləsi (Asteraceae Dumort) – 44 növlə təşkil edir.

Professor digər "Naxçıvan Muxtar Respublikası florasında yayılan Rosaceae fəsiləsinin oduncaqlı növlərinin ekoloji qrupları" adlı elmi məqaləsini dissertantı Səfurə Babayeva ilə birgə qələmə alıb və elmi məqalə həmin jurnalda dərc olunub.

Məqalədə Naxçıvan MR florasında yayılan Rosaceae fəsiləsinin oduncaqlı növlərinin ekoloji qrupları haqqında məlumat verilir. Tədqiq olunan ərazidə Gülçiçəyikimilər fəsiləsinin oduncaqlı növlərinin ekoloji qruplar üzrə paylanması Şennikovun təsnifat sisteminə əsasən aparılıb. Müəyyən edilib ki, mezofitlər 43 (47%), mezokserofitlər 23 (25%), kseromezofitlər 8 (9 %), kserofitlər isə 17 növ olmaqla ümumi Gülçiçəyikimilər fəsiləsinin oduncaqlı növlərinin 19% -ni təşkil edirlər.



Naxçıvan Dövlət Universiteti Bələdiyyə və turizm kafedrasının müəllimi, Təhsilin idarəolunması, təftişi, planlaması və iqtisadiyyatı üzrə fəlsəfə doktoru Rza Məmmədovun Anadolu Universiteti, Pedaqogika Fakültəsi, Pedaqogika elmləri kafedrasının professoru Ahmet Aypayla birgə həmmüəllif olduğu "Türkiyədəki tədqiqat unuversitetlərinin effektivlik analizi" (Efficiency analysis of research universities in Turkey) adlı elmi məqaləsi Böyük Britaniyanın Oxford mərkəzli "International Journal of Educational Development" adlı nüfuzlu jurnalda nəşr olunub. Məqalədə Türkiyənin 15 tədqiqat universitetinin, beynəlxalq elmi tədqiqat göstəricilərini mövcud vəziyyəti və gələcək perspektivləri araşdırılıb. Bu vəziyyətə uyğun olaraq, universitetlərin tədqiqat universiteti olmaq üçün elmi tədqiqatlara əsaslanan gəlirlər və digər beynəlxalq standartlar əsasında təklifləri məqalədə əsas tədqiq olunan məsələlər sırasındadır. Jurnalın veb saytı https://www.journals.elsevier.com/international-journal-of-educational-development

Naxçıvan Dövlət Universiteti Bələdiyyə və turizm kafedrasının müdiri Flora Kərimovanın "Seyid Əzim Şirvaninin təhsil fəaliyyəti" (Educational activities of Seid Azim Shirvani) adlı elmi məqaləsi yüksək impafaktorlu "НАУЧЕН ВЕКТОР НА БАЛКАНИТЕ" adlı elmi jurnalda dərc olunub.

Məqalədə Azərbaycanın görkəmli şair və mütəfəkkiri Seyid Əzim Şirvaninin maarifçilik fəaliyyətinin araşdırılmasından, milli mədəniyyət və təhsilin inkişafından, millətin təhsili və dini cəhalətdən qurtulması üçün cəsarətlə və obyektiv mübarizəsindən bəhs edilir.

Jurnalın veb saytı:
<scivectorbalkans@yandex.ru

Səadət Əliyeva
Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri

YARANIŞ - İNSAN - SÖZ

FƏLSƏFİ ESSE

Yaradanın yaratdıqları müəyyən məqsədlədir və bunlar yaranışlar zəncirinin həlqəsi olmaqla əhəmiyyət kəsb edirlər. Yaranışlar sonsuz mahiyyətli olub forma və quruluşları ilə fərqlənirlər. Yaranışlar yaranış məqsədlərinə xidmət edər, lakin özlərinin nə məqsəd daşıdıqlarını, necə olduqlarını ifadə edə bilməzlər. Tapmaca olaraq qalarlar. Bu səbəbdən Böyük yaradan yaratdıqlarının mahiyyət və mənalarını, eləcə də yaranışlar zəncirindəki əlaqələrini ifadə edə bilən vasitəçi yaratdı. Ona ən uca və indiyədək heç bir yaranışa vermədiyi bir nemət olan ağıl, zəka bəxş etdi. Yaradılan bu yaranış mahiyyətləri anlamaq, məna yaratmaq, olanlardan olmayan yarada bilmək üçün zəka qüdrəti ilə silahlandırılan insan idi.

İnsan da daxil olmaqla bütün yaranışlar yaranışlar zəncirində birbirləri ilə əlaqəli olaraq sistem təşkil edirlər. Hər bir yaranışın əlaqələr sistemində öz məqsədi və əhəmiyyəti vardır. Əlaqələr görünməz, görünməyən mahiyyətdə saxlı qalarlar.

İnsanın yaranış məqsədi də məhz mahiyyətləri eləcə də, mahiyyətlərarası əlaqələri üzə çıxarmaq və mənalandırmaqdır. Yaranışların mahiyyətlərini və mahiyyətlərarası əlaqələrini mənalandırmaq üçün insana söz haqqı verildi. Söz də ifadə etdiyi mahiyyət və məna qədər dərin və zəngindir. Sözün zənginliyi ifadə etdiyi mahiyyətlərin və mahiyyətlərarası əlaqələrin açılan məna dərinliyinin səviyyəsi qədərdir. Mahiyyətlərin məna dərinliyi çoxsıralı və sonsuzdur. Məsələn, ibtidai dövrdə "ağac" dedikdə meyvə gətirə bilən, dəyənək, yanacaq və s. xırda məqsədlər üşün istifadə edilə bilən həyati əhəmiyyətli bir ürün olaraq düşünülürdü. Lakin indi ağacdan istifadə sahələrinin siyahısı bir neçə kitaba sığmaz. Bu siyahı ağac mahiyyətindəki məna dərinliyinin açılma həddi deməkdir.

Sözün sehri və təsiri onun ifadə etdiyi mahiyyətin məna dərinliyinin həqiqətini nə dərəcədə ifadə etməsi ilə bağlıdır. Söz öz-ozünə zənginləşməz. Söz ifadə etdiyi mahiyyətin məna dərinliyinin açılması ilə zənginləşər.

Yaranışların mahiyyətinin və mahiyyətlərarası əlaqələrinin məna dərinliyinin açılması insan zəkasının qüdrəti ilə şərtlənir. Zəka qüdrəti

bəşəriyyətin yaratdığı mənəvi dəyərlərin mənimsənilməsi ilə möhkəmlənir və yaranışların mahiyyətlərini eləcə də, mahiyyətlərarası əlaqələrini açmaq imkanı əldə edir. Yaranışların mahiyyəti sonsuz olduğu kimi zəka qüdrəti də sonsuzdur.

Mahiyyətlər qeyd etdiyimiz kimi çoxsıralıdır. Sıralar arasında sanki bir sir pərdəsi vardır. Birinci sıradakı mahiyyətin sir pərdəsini açmadan ikinci siradakı mahiyyət bilinməz. Sıralar sonsuz olduğu üçün mahiyyətlərin dərinliyi də sonsuzdur. Məhz buna görə də bəşər zəkası ibtidaidən aliyə doğru dərinləşir və açılan mahiyyətlərin mənası ilə zənginləşir.

İnsan zəkası yaranış mahiyyətinin və yaranışlararası əlaqələrin dərinlik hüdudunu bilməz. Hüdudu bilmədiyindən sonsuz deyər. Sonsuzluq bilə bilmədiyimiz və bilməmizin imkansız olmasının etirafıdır.

İnsan da daxil olmaqla hər bir yaranış məqsədi istiqamətində faydalıdır. Əks təqdirdə digər yaranışlar üçün zərərli bir halın əmələ gəlməsinə səbəb olar.

İnsan ona verilmiş dünyanın ən uca və ən qüdrətli neməti olan zəkasını yaranış məqsədinə yəni, mahiyyətlərin və mahiyyətlərarası əlaqələrin açılmasına yönəldərsə dünya özünün nağıllaşan və əfsanələşən qızıl dövrünə qədəm qoymuş olar.

İnsan öz zəka qüdrətiylə yaranışların mahiyyətlərini və mahiyyətlərarası əlaqələrini açmaqla yeni-yeni mənalar yaradır onları reallaşdırırmaqla ucalır və ucaldır.

Yusif Hüseynov
Beynəlxalq münasibətlər və hüquq fakültəsinin dekanı, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent

GÖZ YAŞI, QÜRUR, SEVİNC VƏ QƏLƏBƏ OVQATLI İL

Artıq 2021-ci ilin ilk ayını başa vurmaqdayıq. Bu gün yola saldığımız ilə nəzər salsaq görərik ki, 2020-ci il tarixdə bəlkə də ən yadda qalan illərdən oldu. Dünyanı ağuşuna alan, 2019-cu ilin son günlərində Çində ortaya çıxan Covid-19 adı ilə tanınan virus qısa zamanda bütün ölkələrə yayıldı. Bu ölkələrdən biri də Azərbaycan oldu. Virus 2020-ci il tarixinin son gününə qədər öz hökmünü sürdü və hələ də sürməkdədir. Necə deyərlər, bu pandemiya bütün dünyanın kabusuna çevrildi. 2020-ci il Covid-19 ilə o qədər qarmaqarışıq bir il oldu ki, sanki bir göz qırpımında gəldi və getdi.

Elə bu çıxılmaz virusa başımız qarışmışkən dövlətimizi daha böyük bir bəla, Korona virusdan da daha iyrənc bir virus tapdı. Ermənilər əsrlər boyu törətdikləri müsibətlərə yenidən əl atdı, yenidən öz vəhşiliklərini göstərdilər. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri atəşkəsi pozaraq, bir neçə istiqamətdən müxtəlif növ silahlardan, həmçinin ağır artileriyadan istifadə edərək hərbi mövqelərimizi, eyni zamanda yaşayış məntəqələrimizi atəşə tutdular. Günahsız mülki şəxslərimiz, hərbi qulluqçularımız erməni murdarlarının təxribatları nəticəsində canlarını itirdilər. Neçə-neçə körpələrimiz Gəncədə, Bərdədə törədilən terror aktı nəticəsində həyatlarını itirdilər. Minlərlə hərbi qulluqçumuz şəhidlik zirvəsinə ucaldı. Bu təkcə bir nəfərin həyatını itirməyi yox, həm də həmin şəhidin ailə üzvlərinin həyatlarının sönməyinə, dəyişilməyinə gətirib çıxartdı. Bir qadının çiynində övladının, digər bir qadının çiynində yoldaşının son mənzilə uğurlanması çox acı və kədərlidir.

28 il sonra işğaldan azad olunan Qarabağımız şəhid ailələrinin tək təsəllisi oldu. Düşündülər ki, ən azından şəhidimin qanı yerdə qalmadı. Uğrunda qanlar tökülən həmin torpaq, nəhayət ki, Azərbaycanımıza geri qayıtdı. Düzdür, çox çətin, unudulmayacaq ağır günlər yaşadıq. 44 gün davam edən bu müharibədə ata-analar övladsız, bacılar qardaşsız, gəlinlər ərsiz, uşaqlar atasız qaldı. Artıq onların həyatına nur üzlü şəhidlərimiz bir daha geri gəlməyəcək. Onların yeri heç zaman dolmayacaq. Ancaq bizim xalqımız mərddir, qürurludur, dözümlüdür, qəhrəmandır. Bu müharibədə neçə-neçə gözüyaşlı analar öz övladlarının erməni əsirliyinə düşməyindəndirsə, şəhid olmağı üçün qurban dedilər, dualar etdilər. Övladlarının düşmən əlinə keçməkdənsə, ən uca zirvəyə yüksəlmələrini arzuladılar.

II Qarabağ döyüşlərində şəhidlərimizlə yanaşı qazilərimiz də oldu. O qazilər ki, şəhidlərimiz qədər öz canlarını heçə sayıb özlərini döyüş meydanına atdılar. Bəlkə də çoxlarının həyatında heç görmədiyi artileriya qüvvələri, eşitmədikləri minaatan səsləri artıq onlar üçün adi bir hala çevrildi. Düşmən üzərinə qorxmadan irəliləyən, adlarını tarixə qızıl hərflərlə yazdıran igidlərimiz bu gün bütün dünyaya öz adlarından söz açdırdılar. Bu igidlərlə fəxr etməmək günah olar.

Bu günlərdə hər kəsin evində məyusluq, gözyaşı oldu. Bir gözümüz ağlarkən, digər gözümüz də qürur və sevincdən güldü. Cəsur, qəhrəman oğullarımızın cəsarəti, əzmi, iradəsi sayəsində bu Qələbəni qazandıq. Neçə-neçə şəhidlərimizin, qazilərimizin şücaətinin nəticəsidir ki, bu gün evimizdə sağ-salamat, qorxusuz otura bilmişik. 2020-ci il Azərbaycan tarixində həm ən çətin, ağrılı, həm də ən yadda qalan, həsrətlə gözlədiyimiz zəfər ili oldu.

Televiziya kanallarında şəhidlərimiz və onların ailələri ilə, qazilərimizlə bağlı hazırlanan verlişlərimiz bizlərə qürur hissi yaşadır. Hər bir Azərbaycan vətəndaşı kimi mən də qazilərimizə baxarkən həm üzüntü, həm də qürur hissi keçirirəm. Hərkəsə bəllidir ki, elə qazilərimiz var ki, ayaqlarını, qollarını, elələri var ki, gözlərini itiriblər. Bu hal əlbəttə ki, insanı üzür. Qürur hissi isə ona görə keçirdim ki, əsgərlərimizdə, qazilərimizdə olan vətənpərvərlik, cəsarət, qəhrəmanlıq hissi, vətən sevgisi torpaqlarımızın bütövlüyünü bərqərar etdi. Vətənimdə bu cür mərd, cəsur övladlar əsrlər boyu olub və olacaq. Bu cür qəhrəmanlar yetişdirən bir xalqın övladı olduğum üçün çox şanslıyam.

Yazımı ümummilli lider Heydər Əliyevin vətənpərvərliklə bağlı söylədiyi fikirlərdən biri ilə sonlandırmaq istəyirəm: "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətənə, torpağa, millətə sədaqət, Vətən yolunda şəhidliyə hazır olmaq hislərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir". Bu gün bir daha əmin olduq ki, ulu öndərimiz Heydər Əliyevin vətənpərvərlik təlimi son dərəcə qiymətli olub, çağdaş dövrdə də, gələcək yüzillərdə də öz əhəmiyyətini saxlamaq gücünə malikdir.

Telli Mustafayeva
Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı

KƏNDİMİZ DÜNƏN VƏ BU GÜN

Məktəbli vaxtlarımda müəllimimiz Uşaqlıq xatirəniz haqqında inşa yazın dedikdə mövzumun içində mütləq kəndimiz olan Vayxırın adını çəkirdim. Çünki uşaqlığımın ən gözəl xatirələri kəndimizlə bağlıdır. Böyük muxtar respublikanın kiçik bir damlası olsa da, mənim üçün dəryadan fərqsiz idi. Vayxırın tarixi də çox qədimdir. Kəndin adı ordakı Vayxır mineral bulağının adı ilə bağlıdır. Bulağın adı fars dilində vah - "yaxşı", xvar- "yer" sözlərinin birləşməsindən ibarətdir ki, bu da bulağın müalicə əhəmiyyətli mineral su olması ilə əlaqədardır.

Kəndimiz Babək rayonunda, Naxçıvan çayının kənarında, alçaq təpəlikdə yerləşir. Uşaqlığımın ən xoş günləri həmin təpələrdə üzərlik yığmaqla, qoyun-quzu otarmaqla, qaçdı-tutdu oynamaqla keçib. Həyətimizin aşağısında çörək bişirilən yerimiz – təndirəsərimiz var idi. Dan yeri sökülən kimi nənəm təndirəsərə gedər, yerə palaz salar, təndiri alışdırar, axşamdan yoğurduğu xəmirdən kündələr kəsərdi. Təndirəsərin möhrədən hörülmüş divarında kiçik bir pəncərə var idi. Elə ki, tüstü çölə yayıldı qonum-qonşu təndir başında cəm olardı. Süfrələr diz üzərinə sərilər, duvaqlar düzülər, oxlovlar şaqqıldayar, lavaşlar açılardı. Təndirdən çıxan isti lavaşın bir də ev pendirinin yerini heç bir ləvin verə bilməzdi. Nənələrimizin bu qədər əziyyətlə başa gələn işləri bizə ancaq nağıl təəssüratı bağışlayırdı. Təndir başında hey qaçır, oynayır, hərdən də şirin dillə "Ay nənə bizə də xəmir ver" deyirdik. Həmin istəyimizin cavabı barmaqlarımıza dəyən oxlov, bir də " Ay bala az şitənin, aman günüdür təndirə düşərsiz" olurdu. Çörək bişiriləndən sonra təndir başında işləyənlər üçün nahar süfrəsi açılardı. Süfrədə təndir külündə bişən kartof, soğan və nehrə yağı olardı. Oynayıb yorulduqdan sonra süfrədə biz də yerimizi tutar, nənəmizin tutduğu "Xan dürməyindən" yeyər, təndir közündən salınmış samovardan kəmşirin çayımızı içib həyətə qaçardıq. Həmin zamanlarda kəndin vəziyyəti çox çətin idi. İçməli su olmadığından xeyli uzaqdan-artezian quyularından, kanallardan su gətirir, su daşlarına töküb təmizləyir sonra istifadə edə bilirdik. Qışda palçıqlı yollar isə kənd camaatını lap təngə gətirirdi. Bəzən yollar buz bağladığı üçün insanlar evdən çölə çıxa bilmirdi. Bir sözlə vəziyyət çox çətin idi.

Kəndin baharı başqa bir aləm olurdu. Çiçəklərdən, otlardan yayılan ətir sanki insanın ruhun oxşayır, hərdənbir naxırçının zurnasından yayılan hava qoyun-quzuların səsini batil edirdi. Yazın gəlişi ilə birlikdə, təbiətlə birlikdə bütün kənd də qış yuxusundan oyanırdı. Hər çiyində dımrıq, bel, toxa, hər təpədə isə bir sürü qoyun, quzu mələşir, bütün aləm hərəkətə gəlirdi. Xalqımızın illərdir qoruyub saxladığı Novruz adət ənənələri, Xıdır Nəbi bayramı hər evdə xüsusi təntənə ilə keçirilirdi. Gün batan kimi əlimizə papaq alıb bütün kəndi dolanıb bayram payı yığar, yumurta toqquşdurar, xoruz döyüşdürər, tonqal qalayar , bayramı beləcə yola verib əylənərdik.

Günəşin növbəti fəsildə doğuşunun ilkin şəfəqlərinin yeri bəzədiyi vaxt bağçamızın seyrinə çıxırdım. Küləyi ardına alıb rəqs edə - edə yerə düşən saralmış yarpaqları izləyərkən birdən qulağıma bir səs gəldi. Sanki bir topa xəzan üzərinə dolu yağırdı. Ardından eşitdiyim söhbət hadisənin nə olduğunu aydınlaşdırırdı. "Sağ tərəfdəki budağı elə vur ki, hamısı tökülsün. Ehtiyyatlı ol, tingi qırarsan" bu şirin

dioloq payızın gəldiyini, cəviz-badam mövsümünün başladığı xəbərini verirdi. Payız fəslinin gəlməyi ilə kənd camaatı hərəkətə gəlir, qış üçün tədarük görürdü. Kəndimizin aşağısında bizim də buğdalıq sahəmiz var idi. Payız gələndə babam hövsələdən çıxardı. Çünki taxılı biçdirmək çox çətin idi. Texnika çatışmamazlığına görə bir neçə kənddə bir kombayın xidmət edirdi. Bu vəziyyətdə kənd camaatı arasında narazılıq yaranar və iş daha da çətinləşərdi.

Ailəmizin ağbirçək nənəsi, kəndin, həm də Naxçıvanın ən uzunömürlü sakinlərindən olan, dünya müharibəsi görmüş 95 yaşlı Sonabəyim nənə bu kənddə doğulub böyümüş, bu yaşına qədər burada yaşamışdır. Nənəmiz deyir ki, Vayxır kəndi əvvələr indiki yerdən bir qədər uzaqda Şiş dağının ətəklərində idi. Sonralar kənd camaatı köçərək arana – Naxçıvan çayının sahillərinə gəlib çıxmış və burada məskunlaşmışlar. Nənəmiz həm də kəndin, o cümlədən Naxçıvanın mahir xalçaçılarından sayılır. İndiyə qədər yüzdən çox xalça, kilim, cecim, palaz toxumuş, onlardan indiyə yalnız bir neçəsi qalmışdır. Xalçalarını minbir əziyyətlə ərsəyə gətirən nənəm deyir ki, istifadə etdiyimiz rəngləri almaq daha da çətin idi. Bəzən bir rəngi almaq üçün həftələr lazım olurdu. Rəngləri almaq üçün soğan və cəviz qabığından, çaytikanı bitkisinin kökündən, cəviz ağacının yarpaqlarından istifadə edirdik.

Bu gün uşaqlığımın şirin, unudulmaz xatirələrində yaşayan kəndimiz müasirləşərək daha da gözəlləşmişdir.

Naxçıvan Muxtar Respublikasında bir çox sahələrdə inkişafın sürətli getməsi rayon və kəndlərdə də hərtərəfli şərait yaratmışdır. Ən ucqar kənd məktəbləri də əsaslı şəkildə yenidən qurulmuş, elektron sinif otaqları, laboratoriya kabinələri, kitabxanalar şagirdlərin ixtiyarına verilmişdir. Bir zamanlar kəndimizdə iki avtomobilin yanaşı gedə bilmədiyi köhnə asfalt körpü yenisilə əvəz edilmişdir. Hər il yaz, payız aylarında kəndə gəlib əkin sahələrinə, evlərə, yollara ziyan vuran sellərin fəsadının qarşısını almaq üçün böyük kanallar çəkilmiş, bəndlər yaradılmış, körpülər salınmışdır. Kəndimizdə açılan çörək sexi təqribən iki min nəfərə yaxın olan kənd camaatının çörəyə olan tələbatını tam şəkildə ödəyir. Analarımızın yuxusuna haram qataraq gecədən xəmir yoğurub, təndir salmaq adəti artıq kiminə görə şirin, kiminə görə acı xatirə kimi keçmişdə qalıb. Qışın soyuğunda, yayın istisində gözlədiyimiz marşurut növbələri artıq hər saat başı hərəkət edən avtobuslarla əvəz olunub. 10 il bundan əvvəl kənddə yalnız bir-iki evdə telefon var idisə, artıq bütün evlərə telefon naqilləri çəkilib və kənddə müntəzəm olaraq internet resruslarından istifadə olunur. Zirzəmidə nənəmin "maşınka" deyilən, neftlə işləyən ocaqda yemək bişirməsi artıq keçmişdə qalıb. Kəndimiz neçə illərdir ki, qaz və işıq xətləri ilə təhciz olunub. Bu quruculuq və abadlaşma işləri yalnız kəndimiz Vayxırda deyil, muxtar respublikanın bütün yerlərində – Ordubadın Gənzəsində, Şahbuzun Qışlağında, Culfanın Bənəniyarında, Kəngərlinin Çalxanqalasında, Şərurun Şahbulağında, Sədərəyin Düdəngəsində və digər kəndlərimizdə də özünü göstərir.

Məcid Əkbərov
Jurnalistika ixtisası üzrə II kurs tələbəsi

ŞANLI QƏLƏBƏMİZ XALQIMIZIN ƏZMİNİ, AZƏRBAYCAN DÖVLƏTİNİN GÜCÜNÜ BÜTÜN DÜNYAYA NÜMAYİŞ ETDİRDİ!

DASTANA DÖNƏN ÖMÜRLƏR

Tanrı yaratdığı hər insana bir ömür payı verib. Bunu az sayanlar da var, çox sayanlar da. İnsan var ki, uzun ömrünü bada verir, insan da var ki, qısa ömrü ilə tarix yazır. Təkcə ölümləriylə deyil, yaşadıqları ömürləri ilə də vətən torpağında daşa çevrilib sözün əsl mənasında vətəndaş olan insanlar vardır. Belə insanlar onları əhatə edən cəmiyyətə, mənsub olduğu millətə, üstündə böyüdüyü torpağa sevgi bağları ilə möhkəmcə bağlanıb onunla bütünləşirlər. II Qarabağ müharibəsində də biz vətənlə bütövləşən igidlərin qəhrəmanlıqlarına şahid olduq .

44 günlük Vətən müharibəsinin dastanlara sığmayan qəhrəmanlarından hələ çox danışacağıq. İndi haqqında yazacağım igid də onlardan biridir.

1997-ci ilin Milli Qurtuluş günü kimi qeyd etdiyimiz 15 iyun tarixində Naxçıvanın Kəngərli rayonunun Xok kəndində dünyaya göz açan Əsgərov Təbriz Çapay oğlu iki bacının yeganə qardaşı idi. Anası ona Təbriz adını vermişdi ki, bu həyatda nə qədər çətinlik çəksə də, heç bir zaman inamını itirməsin. İnsan adı ilə yaşayarmış deyiblər. Təbriz də həyata hər zaman nikbin yanaşır, nə qədər çətinlik çəksə də, hər zaman gələcəyə ümidlə baxardı. Hələ orta məktəbin V sinfində oxuyarkən Təbrizin anası ağır xəstələnərək 4 il yataqda yatır. Ailənin maddi çətinlikləri olduğu üçün Təbriz 11 yaşından işləmək məcburiyyətində olur. Yayda biçinlə, qışda yük daşımaqla ailəsinə çörək pulu gətirir, o balaca çiyinlərində bir ailənin yükünü daşımaqdan heç yorulmurdu. Ailəsinə çox bağlı olan Təbriz bacılarını əziz-

ləyər, onlara gözümün nuru deyərdi. Özündən böyük bacısı İlkanə xanımın uzun, qıvrım saçlarını darayıb hörərdi. Ürəyində hamıya sevgi bəsləyər, heç kimin qəlbinə dəyməzdi. Hələ balaca vaxtı evdə onu görə bilməyəndə bilirdilər ki, yenə özü adlandırdığı "Məhəbbət quyusu"na, oradakı quşları yemləmək üçün gedib. O, təkcə insanları yox bütün canlıları sevərdi, sanki mərhəmətdən yoğrulmuş qəlbi heç bir canlının əziyyət çəkməsini istəməzdi. Həyətlərindəki qarışqa yuvalarının yanına buğda dənələri tökərdi ki, qoy yem axtarmaq üçün uzaqlara gedib yorulmasınlar.

Vətən sevgisini bütün ruhuyla yaşayan bu igid oğlan milli filmlərimizi izləməyi, xalq musiqilərinə qulaq asmağı da çox sevirdi. Bir də S.Vurğunun, C.Cabbarlının, Z.Yaqubun, M.Arazın vurğunu idi. Elə axırıncı dəfə bacısına aldığı hədiyyə də S.Vurğunun "Seçilmiş əsərləri " kitabı olmuşdu.

Təbriz mərd və qoçaq oğlan idi. Kənddə kimin köməyə ehtiyacı olsa hamıdan qabaq o gedərdi. Məhz hərbidə müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi işlədiyi dövrlərdə də qoçaqlığı, təlimlərdə çevik iştirakı ilə seçilərək bir neçə dəfə fəxri fərmana layiq görülmüşdü.

Müharibə başlamazdan çox əvvəl Təbrizin bir xəyalı var idi ki, bir gün Qarabağı azad edəcək və orada özünə ev tikəcəkdi. Ən böyük arzusu isə Qarabağ atı ilə Şuşanın bütün dağlarını gəzəcək, Cıdır düzündə şahə qalxan atın belindən "Qarabağ bizimdir"- deyə hayqıracaqdı. Müharibə başlayan kimi ürəyindəki Vətən sevgisi, Qarabağı azad görmək arzusu onu cəbhəyə apardı.

Təbriz evdə ailəsinə belə demədən adını könüllü olaraq xüsusi təyinatlılar üçün keçirilən kursa yazdırır, 2 həftəlik təlim keçəndən sonra oktyabrın 17-də baş kəşfiyyatçı olaraq Füzuliyə yola düşür. Gedib oraya çatanda bacısına telefonla mesaj yazıb halallıq istəyərək deyir ki, məni bağışlayın, neçə gündür sizə yalan danışıram, əslində isə mən Qarabağa gəlmişəm. Vətənin harayına gəlməsəydim, sizin başınızı önə əydirmiş olardım. Əgər şəhid olsam, anama deyərsən ki, ağlamasın. Başını dik tutub vətən sağ olsun, desin. Unutmayın, mən sizin başınızı uca etmək üçün burdayam.

Təbriz Hadrut, Qubadlı, Zəngilan uğrunda döyüşlərdə böyük şücaətlər göstərərək qorxusuz bir qartal kimi düşmənin üstünə şığımışdı. Biz buraya ölmək üçün yox, öldürmək üçün gəlmişik - deyən Təbriz Qırmızı bazar yaxınlığında düşdükləri mühasirədən 8 erməni əsgərini öldürərək yoldaşlarını xilas etməyi bacarır. Öz ehtiyat suyunu, yeməyini hər zaman döyüş yoldaşları ilə bölüşən bu igid 4 noyabrda Laçın dəhlizi istiqamətindən Xankəndinə gedən düşmən maşınlarını içindəki heyəti ilə birlikdə məhv etmişdi. Noyabr ayının 5-dən 6-na keçən gecə isə Şuşanı azad etmək uğrunda gedən dillərə dastan o möhtəşəm döyüşdə Təbriz öz uşaqlıq dostu Kamaləddin (Məmmədov Kamaləddin İsrayıl oğlu 10.10.1996) və digər yoldaşları ilə birlikdə düşmənə qan uddurarak alınmaz qalamız olan Şuşanı azad etmişdilər.

Təbriz uşaqlığını bir yerdə keçirdiyi, eyni vaxta döyüşə getdiyi, Qarabağın azadlığı uğrunda çiyin -çiyinə döyüşdüyü dostu Kamaləddinlə birlikdə qələbənin elan olunmasına 2 saat qalmış şəhadətə qovuşdu. Onları son görən döyüş yoldaşları şəhadətə qovuşarkən üzlərindəki sevinci, o gözəl gülüşü heç vaxt unuda bilməyəcəklərini deyirlər. Yoldaşları ilə mühasirədə olanda belə zarafat edib gülən Təbriz və Kamaləddin şəhidlik kimi ali məqama da gülərək yüksəldilər. Hər zaman birlikdə olan bu iki dost noyabrın 13 də Naxçıvana gətirilərək dəfn edildilər.

Qurtuluş günü dünyaya gələrək ailəsinin sevincinə dönən Təbriz azadlıq yolunda canından keçərək 10 milyonluq bir xalqın qüruruna çevrildi. Təbriz və dostu Kamalədin Ali Baş Komandanın Sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda ", "İgidliyə görə ", "Şuşanın azad olunmasına görə " medalları ilə təltif edildilər.

Tanrının sizə biçdiyi bu qısa, şərəfli ömrünüzü azadlığı uğrunda fəda etdiyiniz bu xalq sizi hər zaman ürəyində yaşadacaq. Nə qanla yazılan tarix, nə də bu tarixi yazanlar əsla unudulmazlar! Nur içində rahat uyuyun!

İlahə Allahverdiyeva
Jurnalistika ixtisası üzrə II kurs tələbəsi

"NAXÇIVAN CANAVARI" LƏQƏBLİ İGİDİMİZ VƏLİ QULİYEV

Bu gün zəfər günüdür. Xalqımız bu günü bayram edir. Tam 28 il xalqımızın başında qara buludlar olub. Artıq o qara buludlar çəkildi. Yurdumuza gün doğdu. Həm də elə bir gün doğdu ki, dünya o günəşdən danışdı. Biz bu zəfəri Azərbaycan Respublikası Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə, güclü ordumuza, şəhid olmuş hərbi qulluqçularımıza və qazilərimizə borcluyuq. Şəhidlərin haqqını isə heç bir zaman ödəyə bilmərik. Hər birimizin borcu yaralı qazilərimizə qayğı göstərmək, şəhid ailələrini diqqətdə saxlamaq, şəhidlərimizi qürurla yad etməkdir.

Bu gün şəhid olmuş Vəli Quliyevin ailəsi ilə həmsöhbət olduq. İlk həmsöhbətimiz şəhidin anası Həqiqət xanım oldu. Vəli Quliyev haqqında məlumatla söhbətimizə başladıq.

Həqiqət xanım, istərdik, əvvəlcə şəhidin həyat yolu barədə bizə məlumat verəsiz.

Vəli Kamal oğlu Quliyev 1997-ci il iyulun 20-də Culfa rayonunun Qazançı kəndində anadan olub. 2002-ci ildə atasının əmisinə rəsmi şəkildə övladlıq verilən Vəli 2003-cü ildə həmin kəndin şəhid Elsəvər Eldar oğlu Aslanov adına tam orta məktəbdə təhsilinə başlayıb. 2009-cu ildən isə Naxçıvan şəhərində şəhid Azər Tağıyev adına 17 nömrəli məktəbdə VII sinifdən təhsilini davam etdirib. 2011-ci ildə Heydər Əliyev adına Hərbi Liseyə sənəd verən Vəli hərbi liseyin 1-ci kursuna qəbul olub. 2014-cü ildə oranı bitirərək, Azərbaycan Ali Hərbi Akedemyasının 1-ci kursuna qəbul olub. 2018-ci ildə Akademiyanı başa vuran Vəli həmin ildə N saylı hərbi hissədə xidmətə başlayıb. İki ilə yaxın idi ki, sərhəd bölgəsində Beyləqan Korpusunun Ağcabədi "N" saylı hərbi hissəsində əvvəllər taqım komandiri, 5 aya yaxın isə bölük komandiri vəzifəsində xidmət edirdi. Torpaqlarımızın azadlığı uğrunda vətən müharibəsi başlayanda "Aslanlar bölüyü" adlanan bölüyü Hadrutun qorunmasında, Füzulinin azad olunması uğrunda misilsiz rəşadət göstərib.

Vəli Quliyevin uşaqlığı da oxucularımız üçün çox maraqlı olardı.Ümumiyyətlə, Vəli necə bir uşaq idi?

- Xatirələri yada saldıqca adamın canı ağrıyır. Amma qürurlu bir kədərdir. Vəli hər zaman davranışı ilə seçilən uşaq olub. Həddindən çox dostcanlı idi. Ətrafında olan insanlar da bu dediklərimiz təsdiqləyər. O, heç vaxt xəyal qurmazdı. Bir çoxları kimi maşınım olsun, evlənim belə şeylər düşünməzdi. Onun bir xəyalı var idi ki, böyüyüb əsgər olsun. Deyirdi ki, mən əsgər olacam, vuruşacam. Başqa heçnə düşünməzdi, sanki başqa xəyal qura bilmirdi. Balıq tutmağı da çox xoşlayardı. Allaha, dinə bağlı biri idi.

Həqiqət xanım, heç düşündünüz ki, kaş oğlum hərb sahəsini deyil, başqa peşəni seçərdi?

-Qətiyyən düşünməmişəm. Düzdür, hərbçi olmaq çətin peşədir. Amma bu gün Vəli kimi neçə- neçə oğullar sayəsində xalqımız zəfər qazanıb. Bu gün onların sayəsində xalq bayram edir. O uşaqlıqdan bu yolu seçib, mənə çətin də olsa onun seçiminin tərəfində olmuşam, heç vaxt etiraz etməmişəm. İllərlə onun yolunu səbrlə, təmkinlə gözləmişəm. O hər dəfə bizimlə əlaqə saxlayanda deyirdi ki, əgər mənə nəsə olsa ağlama, ana, başını dik tut. Sən mənimlə fəxr et.

Daha sonra şəhidin atasına sual ünvanlayırıq: Vəli daha çox kimə bağlı idi, kiminlə dərdləşər, kiminlə dərdini bölüşərdi?

-Belə deyim ki, Vəli, ümumiyyətlə pozitiv biri idi. Ona yad olan insanlar elə bilərdi ki, onun heç dərdi yoxdu. Əgər bir problemi olardısa da çalışardı ki, bunu kiməsə bildirməsin, özü həll etsin. Nə olursa-olsun, Vəli özü hər problemdən baş çıxara bilərdi. Bunu da qeyd edim ki, oğlan uşaqları adətən analarına bağlı olurlar. Vəli də ən çox anası ilə danışar, onunla dərdini bölüşərdi.

Maqsud bəy, siz Vəlinin əkiz qardaşısınız. Qardaşınızdan xəbər ala bilmədiniz də nələr hiss edirdiniz?

- Oktyabr ayının 20-də qardaşım mənlə danışmaq üçün zəng etdi, lakin mən onunla əlaqə saxlaya bilmədim. Zəngini açə bilmədiyim üçün narahatlıq keçirirdim. Bir neçə saat sonra Vəli yenidən zəng etdi. Hər şeyin yaxşı olduğunu dedi. Erməni vəhşilərini necə qırdıqlarından danışdı. Daha sonra "Məndən narahat olmayın, tez tez sizinlə əlaqə saxlayacam" - dedi və dəstəyi yerə qoydu. Bu, Vəli ilə son danışığımız oldu.

-Torpaqlarımızın mənfur düşmən tapdağından azad olunması uğrunda döyüşən Vəli Quliyev necə şəhid oldu?

Azərbaycan Ordusunun leytenantı olan Vəli Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan və Qubadlının alınması əməliyyatlarında iştirak edib. Oktyabrın 22-də Qubadlı rayonu uğrunda gedən döyüşlər zamanı şəhid olub. Vəli şəhid olmamışdan qabaq bir dəfə də yaralanıb. Lakin o dayanmadan yaralı halda irəli gedərək mübarizəsini davam etdirib. Axırıncı dəfə isə şah damarından vurularaq şəhid olub.

-Bu faciədən necə xəbər tutdunuz?

-Vəlinin şəhid olmasını əmim və xalamın yoldaşı bizdən qabaq bilirdi. Əmim 12 gün bizdən gizlətdi. Vəlinin nəşi Naxçıvana gələnə yaxın artıq anamgil bilirdilər.

Üzümü şəhidin valideynlərinə tutub deyirəm. Vəli haqqında ən yaddaqlan xatirənizi bizimlə bölüşə bilərsinizmi?

-Vəli haqqında o qədər gözəl əhvalatlar danışa bilərəm ki... Bir gün mən eşitdim ki, bəzi tanışlarımız öz aralarında bizim ailənin maddi vəziyyətinin yaxşı olmasından danışırlar. Bu söhbətə nəyin səbəb olduğu məni çox maraqlandırdı. Sonra bildim ki, Vəli aldığı maaşın çox hissəsini iş yoldaşının uşağının xəstəliyi üçün ayırırmış. Daha sonra Vəli mənimlə əlaqə saxladıqda bu haqda mənə də danışdı. Mən dedim ki, oğlum, yaxşı etmisən, bəs bu qədər pul çox deyilmi? Cavab olaraq mənə dedi ki, yox ana, əsas odur o uşaq sağalsın, hər birimizin istəyi budur. Ümumiyyətlə, Vəli qazandığı pulu boş yerlərə xərcləməz, düşünüb sonra hərəkət edərdi.

-Son olaraq bizə nə demək istərdiniz?

- Vəli Quliyev haqqında yazdığınız üçün təşəkkür edirəm. Xalqımız heç bir şəhidimizi unutmasın, unutdurmasın. Onlar bizim igid balalarımızdır. Sağ olsun, Ali Baş Komandanımız, ona minnətdarıq ki, şəhidlərimizin xatirəsini hər zaman əziz tutur. Oğlumuz Vəli Quliyev də Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarının icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Biz də, öz növbəmizdə bizə zaman ayırdığınıza görə sizə təşəkkür edir, belə bir qəhrəmanı tanıdığımız üçün qürur hissi keçiririk. Onlar əbədi olaraq bizim qəlbimizdə olacaqlar. Allahdan sizə səbr, şəhidlərimizə isə rəhmət diləyirik.

Nailə Bağırova
Jurnalistika ixtisası üzrə II kurs tələbəsi

BİZ BU QƏLƏBƏNİ HƏM PEŞƏKARLIQ VƏ QƏHRƏMANLIQ HESABINA, HƏM DƏ MİLLİ RUH HESABINA QAZANMIŞIQ!

MUROV FATEHİ - ƏRTOĞRUL

Şəhidlik adi bir ölüm deyil, Vətən, torpaq, böyük amallar uğrunda canından keçmək, özünü şüurlu şəkildə qurban vermək deməkdir. Öz həyatını bir kənara qoyub gələcək nəsillərin xoşbəxtliyini təmin etməkdir.

Qarabağ müharibəsində şəhid olan qəhrəmanlarımızın ruhu qarşısında baş əyirəm. İkinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalanlardan biri də əmimoğlu - Nadirli Ərtoğrul Hümbət oğludur.

Körpəlikdə qoyulan adların insanların həyatına təsir etdiyinin bir daha şahidi oldum. Qəhrəmanımız anadan olanda Hümbət əmim ona Ərtoğrul adını verdi. Bu ad sıradan bir ad deyildi. Qədim türk öndəri Ərtoğrul Qazinin adı idi. Ərtoğrul da atasının ona verdiyi adı şərəflə uca tutdu, bu ada layiq olub Vətən uğrunda canından keçdi.

Nadirli Ərtoğrul Hümbət oğlu 31 mart 1997-ci ildə Sədərək rayonunun Qaraağac kəndində anadan olmuşdur. 2003-cü ildə Sədərək rayon 1 nömrəli tam orta məktəbin birinci sinfinə daxil olan Ərtoğrul oxuduğu dövrdə müəllimləri, sinif yoldaşları tərəfindən sevilən biri olmuş, öz yoldaşlarından sakitliyi, tərbiyəsi ilə seçilmişdir.

Bir gün ədəbiyyat dərsində müəllim şagirdlərə "Gələcəkdə hansı peşəni seçəcəksiniz?" adlı esse yazmağı tapşırıb. Ərtoğrul hərbçi olmağı arzu etdiyini və bu peşəyə yiyələnmək üçün əlindən gələni edəcəyini deyib. Bu peşəni seçməkdə məqsədin nədir?- sualına Ərtoğrul belə cavab verib: -"Müəllim, torpaqlarımızın 20%-i işğal altındadır. Mən işğal altında olan torpaqlarımızı – Qarabağı işğaldan azad etmək istəyirəm".

Bu gün o artıq öz arzusuna çatıb.

Ərtoğrul bu amalını yerinə yetirmək üçün ilk addımı 2012-ci ildə Naxçıvandakı Heydər Əliyev adına Hərbi Liseyə qəbul olaraq atıb. 2015-ci ildə Hərbi Liseyi yüksək qiymətlərlə bitirərək, elə həmin ildə Bakıdakı Heydər Əliyev adına Ali Hərbi Akademiyaya qəbul olunub. 2019-cu ildə Ali Hərbi Akademiyanı bitirən Ərtoğrul leytenant rütbəsi alaraq Tovuz bölgəsinə göndərilib. Altı aylıq xidmətdən sonra Bakıya kursa gələn Ərtoğrul buranı bitirdikdən sonra Daşkəsən rayonunda xidmət etməyə başlayıb.

Ərtoğrul Nadirli 27 sentyabrdan başlayan ikinci Qarabağ müharibəsində iştirak etmək üçün Goranboy rayonuna göndərilib. Murovdağ yüksəkliyinin alınmasında şücaətlə döyüşüb, onlarla yaralı yoldaşlarını çiynində döyüş bölgəsindən çıxardaraq, işğal altında olan 4 postumuzun düşməndən azad olunmasında iştirak edib. Ərtoğrul Kəlbəcər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Murovdağ yüksəkliyinə qalxdıqdan sonra 52 gün Ərtoğruldan xəbər ala bilmədik və daha sonra şəhid olduğunu öyrəndik.

Ərtoğrul hər kursu bitirib gələndə atası ona qurban kəsərdi. Bu il qurban Ərtoğrulun cənazəsi qarşısında kəsildi.

Biz balacalıqdan bacı-qardaş kimi bir məhlədə böyümüşdük. Uşaqlıqda böyüyəndə kim olacağımızı soruşanda hər kəs fərqli peşələr deyər, Ərtoğrul isə hərbçi olacağını söyləyərdi. İllər keçdi, hər birimiz məktəbi bitirib uşaqlıqda dediyimiz kimi istədiyimiz peşələrə yiyələndik. Ərtoğrul isə Vətənimizin keşiyində duran məğrur bir hərbçi oldu.

Qış, yay tətillərində bir araya gələr, oxuduğumuz kitablar haqqında müzakirələr edərdik.Ərtoğrul isə adətən hərbidə başına gələn maraqlı əhvalatlardan danışardı.

Qəhrəman şəhidimiz Nadirli Ərtoğrul Hümbət oğlu ölkə başçısı, Ali Baş komandan Cənab İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Biz Ərtoğrulla qürur duyuruq. Ruhun şad, məkanın cənnət olsun, əmioğlum!

Azərbaycan xalqı yaşadıqca şəhidlər də yaşayacaq! Bu xalq, bu millət sizinlə qürur duyur, fəxr edir!

Zümrüd Rzazadə
Riyaziyyat və informatika müəllimliyi ixtisası üzrə III kurs tələbəsi

ZAMANIN SƏSLƏRİ

Bəzən yazmaq istəyirsən, amma yaza bilmirsən. Yazmaq istədiyin o qədər məfhum varkən heç birisini yaza bilmirsən, hansını yazacağına qərar verə bilmirsən. İllərdi yazmaqla qabar tutmuş əllərin yaza bilmir. Ürəyin yazır, heç olmadığı qədər çox yazır. Hər mövzudan, emosiyadan min cür bəlağətdən yazır. Anın içində min-min mövzunu yazır. Şairanə yazır, filosofanə yazır, amma sən istədiyini yazmır. Bəlkə də sən

istəmirsən, bəlkə də sən yazmaq istəmirsən, bəlkə də sən sükuta dalmaq, ümmanların qapısını çalmaq istəyirsən. Qələmi alırsan əlinə, bir dərin nəfəs çəkirsən yazmaq üçün, amma o nəfəs qəlyan tüstüsü kimi illərdi içində gizlində qoruduğun saflıqları külək havaya sovuran kimi bəşərin sonsuz qaranlığına, xəyallar, saya bilməyəcəyimiz qədər ümmanların xar olduğu qoca kainatın qabar tutmuş qəlbinə sovurur.

Dərin çəkdiyin nəfəs bitdiyi an gözlərin yazı lövhəsindən aralanır və heç nə yazmamış kimi buludlu səmaya baxırsan. Bilirsən ki, bir də yazacaqsan, amma bir daha bəlkə də bu sözləri, belə içdən yaza bilməyəcəksən.Yazsan da zaman o zaman olmayacaq, sən o sən olmayacaqsan.

Bəlkə də yaza bilmirəm- deyib mənim kimi ani ilhamlarla cızma-qara edəcəksən. Saydığın bəlkələr öz-özlüyündə yeni bəlkələr doğuracaq. Bəşərin sonsuz girdabında olduğun qədər olmayacaq,olmadığın qədər olacaqsan.

Cəbrayıl Həsənzadə
Baş hüquqşünas, "Hüquq fənləri" kafedrasının müəllimi

XARIBÜLBÜLÜM

Ey mənim narahat, pərişan gülüm,
Gözəllər gözəli, xarıbülbülüm.
Uğruna ölməyə gəlmişik sənin,
Ey mənim nisgilim, mənim kədərim.

Qoymarıq, dəyməsin düşmənin əli,
Sənin həsrətində qızların teli.
Sən anam, sən bacım, sən qızım mənim!!!
Sən oldun bu yurdda mənim həmdəmim.

Ey azad yurdumun xarıbülbülü,
Min-min könüllərin yarı bülbülü.
Uğruna min canlar etmişdir fəda,
Sənincün igidlər olmuş Şühəda.

Mənim gülüstanım, şad et könlümü,
Sən etdin bəxtiyar mənim ömrümü.
Eşq olsun bu yurda, doğma Vətənə,
Daim var olacaq bizim qələbə!!!

Çinarə İsmayılova
Universitetin Elmi Kitabxanasının baş kitabxanaçısı

ZƏFƏR TARİXİNİN YENİ SƏHİFƏSİ

Gözün aydın olsun, şəhid anası,
Artıq qaytarılıb Şuşa qalası.
Namərd düşməndən qisas alaraq,
Söndü xalqımızın ürək yanğısı.

Daha fikir etmə gözəlim, Laçın,
Bağlı qapıları yenidən açın!
Müqəddəs torpağa bayraq sancaraq,
Zəfər tarixində bir səhifə açın!

Artıq səninləyik, can Kəlbəcərim,
Necə ildir həsrət çəkir gözlərim.
Yad düşməni bu torpaqdan qovaraq,
Yeni tarix yazdı şanlı əsgərim.

Zəfər xəbərləri çatdı yurduma,
Alqışlar edildi güclü orduma.
Qaranlıqdan aydınlığa çıxaraq,
Xalq səfər edəcək yenə Ağdama.

Şükür, qələbəyə qovuşdurana,
Minnətdarıq Ali Baş Komandana!
Zəfərimiz üçün ən böyük alqış,
Düşür cəbhələrdə tarix yazana!

Səidə Məmmədova
İngilis dili müəllimliyi üzrə III kurs tələbəsi

ŞEYDAİ-ŞƏM

Aşina oldum al-laləzari-qızılgülün ətrinə,
Bir ləhzə də irağ olmadım gülü-xəndanın çətrinə.

Bülbülü-şeyda oxurdu kübar nəğməsini şamu-səhər,
Qartal, quzğun cəm olardı şeydanın ahəstə sətrinə.

Məşriq eşqilə doğan günəş, məğrib eşqi ilə qürub edərdi,
Şeyda sığınmışdı qızıl göylərin asimanı-parlaq çətrinə.

Şəm çağı səba uzaq diyaridən cismimizə vurdu öz nəfəsin,
Fəqət, günlər qəddari-zalimdi, dəymişdi səbanın xətrinə.

İntizar ilə hər dan çağı nurlu yarınlara çak etdi sinəsin,
İdraki-dərkidən irağ şəm içirmişdi badə öz məşuqi-xiridarinə.

Cəbrayıl Həsənzadə
Baş hüquqşünas, "Hüquq fənləri" kafedrasının müəllimi

XƏZƏL ÇAĞI

Gəzdiyim yerləri cənnət sanırdım,
Tikanla doluymuş, sən demə yollar.
Hər gülən gözləri xoşbəxt sanırdım,
Qəmi gizlətməkçün gülürmüş onlar.

Hər gələn xəbəri sevinc bilirdim,
Nə bilim hicrana düçar olacaq?
Gözəl günlərimi daim bilirdim,
Bilməzdim sonralar "bir an" olacaq.

Dərd mənim vəfalı, sadiq dostumdur,
Əksini bir dəfə heç göstərməyib.
Kədərlə hər anım yoldaş olubdur,
Qan dolu gözləri heç güldürtməyib.

Ömrüm illərdi ki, payız çağında,
Saçlarım xəzəltək tökülüb necə!
Yazın da, yayın da çox uzaqlarda,
Bəlkə də, nə vaxtsa rastlayar mənə.

Yenidən başlamaq daha çox gecdir,
İllərin vərdişi hələ var məndə.
"Unudarsan" demək necə asandır?!
İllərin dəhşəti hələ var məndə...

Jalə Hacızadə
Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə II kurs tələbəsi

MƏLƏK OLMAQ İSTƏYƏRDİM

Ağ donlu geyimimdə
Mələk olmaq istəyərdim.
Qarışaydım göy üzünə
Ağla mavi ahənginə.
Süzüləydim mən qanadsız
Sonsuz mavi sehrində.
Oturaydım buludların
Ən yumşaq zirvəsində.
İzləyəydim olanları,
Öz içində batanları,
3-5 qəpik mənfəətə
Dostu yada satanları.
Əllərinə silah alıb
Öz xalqına tutanları.

Anasına əl qaldırıb
Atasını vuranları.
İnsanların içlərində
İnsanlıqdan kənarları.
Yüz illərdir tükənməyən
Hər cür şəri, hər pisliyi.
İzləyəydim mən son dəfə
Öz hirsimi, qəzəbimi.
Birdən qəfil oxunaydı
Bir məsciddən azan səsi.
Ürəyimə toxunaydı
O azanın gur nəfəsi.
O səs ilə qarışaydım
Səssiz-səssiz buludlara.
Sığınaydım sonsuzluğun
Mavi rəngli qollarına.
Kaş bir mələk mən olaydım...
Toxunaydım göy üzünə.
Geyinəydim ağ donumu
Qarışaydım mavilərə.

Zibeydə Əlizadə
Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə II kurs tələbəsi

Baş redaktor:
ŞƏHLA ŞİRƏLİYEVA
shshahla36@gmail.com

Ünvan: AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi
Telefonlar: 544-08-61 (13-60)
yenifikir.ndu@gmail.com

Qeydiyyat №330
Sifariş №
Tiraj 500

Redaktor: Samir Tarverdiyev
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.